**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “QARABAĞ İQTİSADİ RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Məmmədova Fatma Niyaz**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**__________________________ imza**
**"____" _______________ 2022-ci il**

# "QARABAĞ İQTİSADİ RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ"
**mövzusunda**
**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060409 – Biznesin idarə edilməsi
**İxtisaslaşma:** Biznesin təşkili və idarə edilməsi
**Qrup:** 116


**Magistrant:**
**Məmmədova Fatma Niyaz qızı**
**_____________ imza**

**Elmi rəhbər:**
**i.e.n., dos. Həmidov Həmid İnsaf oğlu**
**________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay**
**______________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**__________________imza**


**BAKI – 2022**

## Elm andı

Mən, Məmmədova Fatma Niyaz qızı and içirəm ki, "Qarabağ iqtisadi rayonunun sosial-iqtisadi inkişafının müasir vəziyyəti və qiymətləndirilməsi" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# QARABAĞ İQTİSADİ RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: 2020-ci ilin 27 sentyabr tarixində düşmən təxribatlarına cavab olaraq işğalçı Ermənistana qarşı başlanılan və 44 gün davam edən Vətən müharibəsi nəticəsində düşmən işğalındakı torpaqlar azad edilmiş və ölkəmizin ərazi bütövlüyü təmin edilmişdir.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi işğaldan azad olunmuş ərazilərin bərpasında və inkişafında hazırlanmış layihələrin tətbiqi ilə sosial-iqtisadi inkişafa nail olmaqdır.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqitatda müşahidə, müqayisəli təhlil, analiz metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiqatın informasiya bazasını müxtəlif yerli və xarici mənbələr, elmi tədqiqatlar, imzalanan fərmanlar və tarixi faktlar, Dövlət Statistika Komitəsinin hesabatları təşkil edir.**

**Tədqiqatın məhdudiyyətləri: Hazırda Qarabağda aparılan quruculuq işlərinin aparılması səbəbi ilə bölgəyə səfərlərin məhdudlaşdırılması.**

**Nəticələrin elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın elmi-praktiki nəticələrinə əsasən işğaldan azad olunmuş ərazilərdə geniş miqyaslı quruculuq və bərpa işlərinin həyata keçirilməsi xərcləri artırmaqla yanaşı, eyni zamanda rəqabətqabiliyyətli iqtisadi sahələrin, həmçinin turizm potensialından səmərəli istifadə edilməsi, dövlət investisiyaları, xarici və yerli investisiyaların cəlb edilməsi, sahibkarlığın, xüsusilə də mikro, kiçik və orta biznesin inkişafını gücləndirməklə bərabər, AR-nın müasir inkişaf prosesində vacib mərhələ olacaqdır.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqat işinin praktiki əhəmiyyəti olduqca böyükdür, belə ki, dissertasiyanın əsas müddəaları, əldə edilən nəticə və təkliflər turizm cəlbediciliyinə dair nəzarət plan və proqramının və hesabatlarının tərtib edilməsində, auditor fəaliyyətinin təşkilinin təkmilləşdirilməsində istifadə edilə bilər.**



***Açar sözlər: Qarabağ, investitisiya, iqtisadiyyat, maliyyə***

**CURRENT SITUATION AND ASSESSMENT OF SOCIO-ECONOMIC DEVELOPMENT OF KARABAKH ECONOMIC REGION**

**SUMMARY**

**The actuality of the subject: As a result of the 44-day Patriotic War launched against the occupying Armenia on September 27, 2020 in response to enemy provocations, the enemy-occupied lands were liberated and the territorial integrity of our country was ensured.**

**Purpose and tasks of the research: The main purpose of the study is to achieve socio-economic development, as well as the attractiveness of the tourism industry through the implementation of projects developed in the restoration and development of liberated territories.**

**Used research methods: Observation, comparative analysis, analysis methods were used.**

**The information base of the research: The research database consists of various local and foreign sources, scientific research, signed decrees and historical facts, reports of the State Statistics Committee.**

**Restrictions of research: Restrictions on visits to the region due to ongoing construction work in Karabakh.**

**The novelty and practical results of investigation: According to the scientific and practical results of the research, in addition to increasing the cost of large-scale construction and rehabilitation work in the liberated territories, at the same time effective use of competitive economic sectors, including tourism, public investment, foreign and local investment Involvement and support of entrepreneurship, especially the development of micro, small and medium-sized businesses, will be an important stage in the new development process of Azerbaijan, as well as further strengthening the foundations of socio-economic development of these areas in the coming years.**

**Scientific-practical significance of results: The practical significance of the research is very great, as the main provisions of the dissertation, the results and recommendations can be used in the development of control plans and programs and reports on tourism attractiveness, improving the organization of auditing.**

***Keywords: Karabakh, investment, economy, finance***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ:** | Amerika Birləşmiş Ştatları |
| **AR:** | Azərbaycan Respublikası |
| **ATƏT:** | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| **BP:** | British Petroleum |
| **GPM:** | GeoProMining |
| **İİTKM:** | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi |
| **KOB:** | Kiçik və Orta biznes |
| **MVt:** | Meqavat |
| **SES:** | Su Elektrik Stansiyası |
| **SOFAZ:** | Azərbaycan Respublikası Dövlət Neft Fondu |
| **ÜDM:** | Ümumi Daxili Məhsul |

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ** | **8** |
| **I FƏSİL** | **İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN BƏRPASI VƏ İQTİSADİ RAYONLAŞMANIN FORMALAŞMASI** | **11** |
| 1.1. | Azərbaycanın iqtisadi rayonlarının tərkibi və iqtisadi bölgüsünün hüquqi aspektləri | 11 |
| 1.2. | Qarabağın təbii-coğrafi və iqtisadi birliyi, onun digər regionlarla qarşılıqlı əlaqələri | 15 |
| **II FƏSİL** | **QARABAĞ İQTİSADİ RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİ** | **20** |
| 2.1. | Regional investisiya daşıyan infrastrukturların səmərəliliyinin əsaslandırılması | 20 |
| 2.2. | Mikro, kiçik və orta sahibkarlıq üzrə ixracyönümlü istehsal sahələrinin yaradılması imkanlarının qiymətləndirilməsi | 36 |
| 2.3. | Qarabağ iqtisadi rayonunun sosial-iqtisadi inkişafı üçün hazırlanmış layihələrin səmərəliliyinin qiymətləndirilməsi | 50 |
| **III FƏSİL** | **QARABAĞ İQTİSADİ RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ** | **65** |
| 3.1. | Qarabağ iqtisadi rayonunda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətləri | 65 |
| 3.2. | İşğaldan azad edilmiş ərazilərin infrastrukturunun təkmilləşdirilməsinin əsas istiqamətləri | 70 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR** | **75** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI** | **78** |
| | Cədvəllərin siyahsı | 87 |
| | Diaqramların siyahsı | 87 |
| | Şəkillərin siyahsı | 87 |
| | Qrafiklərin siyahsı | 87 |

# GİRİŞ

**Mövzunun aktuallığı:** 27 sentyabr 2020-ci ildə düşmən təxribatlarına cavab kimi işğalçı Ermənistana qarşı başlanılan və 44 gün ərzində davam edən Vətən müharibəsi nəticəsində düşmən işğalındakı torpaqlar azad olunmuş və ölkəmizin ərazi bütövlüyü təmin olunmuşdur. AR Prezidenti Cənab İlham Əliyev işğaldan azad edilmiş ərazilərin təkrar qurulması, vətəndaşlarımızın doğma torpaqlarına qayıdışına, o cümlədən, dayanıqlı və davamlı iqtisadi fəallığının təmin olunmasına yönəldilən infrastruktur layihələrinin tərtib edilməsi, sənaye və kənd təsərrüfatı mərkəzlərinin, sosial təyinatlı obyektlərin inşa olunması, eyni zamanda ölkə əhalisinin mənzil-məişət məsələlərinin həll edilməsi ilə əlaqədar vacib işlərin görülməsi ilə əlaqəli müvafiq bir çox fərman və sərəncamlar imzalamışdır. Belə ki, "Azərbaycan 2030: sosial-iqtisadi tərəqqiyə dair Milli Prioritetlər" in təsdiq olunması barəsində AR Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamında növbəti onillik üçün beş prioritet sahə müəyyən edilib. "İşğaldan azad edilmiş bölgələrdə iqtisadi tərəqqinin sürətləndirilməsi" ilə əlaqədar bir sıra tədbirlər barəsində AR Prezidentinin 2021-ci il 10 dekabr tarixli Sərəncamı Qarabağ iqtisadi rayonunun sosial-iqtisadi tərəqqisinin müasir vəziyyəti və dəyərləndirilməsi ilə əlaqəli olub, xüsusi əhəmiyyət daşıyır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Araşdırma işinin mövzusu Qarabağ iqtisadi rayonunun sosial-iqtisadi tərəqqisi üçün işğaldan azad edilmiş ərazilərinin bərpa olunması, milli iqtisadiyyata intensiv inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən yeni infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması sahəsində xüsusi tədbirlər həyata keçirilməsindən ibarətdir. Bu çərçivədə icra olunan layihələr həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsində və sosial-iqtisadi tərəqqisində vacib rol oynayacaqdır.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədi işğaldan azad edilmiş bölgələrin bərpası və tərəqqisi üzrə tərtib edilmiş layihələrin tətbiqi yolu ilə

sosial-iqtisadi tərəqqiyə nail olmaqdır. Araşdırmanın məqsədinə nail olmaq üçün aşağıda sadalanan bir sıra vəzifələri icra etmək lazımdır:

- Azad edilmiş ərazilərin bərpası və iqtisadi rayonlaşdırma məsələlərinə hüquqi aspektləri müəyyən etmək;

- Qarabağ iqtisadi rayonunun təbii-coğrafi şəraitinin analizi və onun digər rayonlarla qarşılıqlı əlaqəsinin öyrənilməsi;

- Ticarət və xidmət infrastrukturunun səmərəliliyini regional investisiyalarla əsaslandırmaq;

- Mikro, kiçik və orta sahibkarlar arasında ixracyönümlü sənaye sahələrinin yaradılması imkanlarının dəyərləndirilməsi;

- Qarabağ iqtisadi rayonunun sosial-iqtisadi tərəqqisinin prioritetlərinə müvafiq olan işlənib hazırlanmış layihələrin səmərəliliyinin dəyərləndirilməsi;

- Qarabağ iqtisadi rayonunda biznes mühitinin yaxşılaşdırılması üçün əlverişli şəraitin yaradılması imkanlarının dəyərləndirilməsi;

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyektini Qarabağ iqtisadi rayonu və bu rayonun ərazisinə aid olan inzibati rayonlar təşkil edir.

Tədqiqatın predmeti hadisələrin maliyyə dönüşü ilə birləşərək azad edilmiş rayonların meliorasiyasının hipotetik və strateji müddəalarıdır.

**Tədqiqat metodları:** Tədqiqat prosesində müxtəlif metodlardan istifadə edilib. Araşdırmasının nəzəri aspektlərinin yazılmasında daha çox müşahidə, müqayisəli təhlil, analiz metodlarından istifadə edilmişdir. Tədqiqatın təhlilinin aparılması üçün statistik və ya analitik təhlil, müqayisə və qrafik təhlil metodlarından istifadə edilmişdir. Elmi metod və yanaşmaların kombinasiyasından istifadə edərək əldə edilən nəticələr müqayisə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Tədqiqatın bazası fərqli yerli və xarici mənbələrdən, elmi araşdırmalardan, imzalanmış fərmanlardan və tarixi faktlardan ibarətdir. Qarabağ iqtisadi rayonunun iqtisadi dirçəlişinin sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və səmərəli istehsalın, innovativ texnologiyaların tətbiqi, sənaye imkanlarının reallaşdırılması, optimal güzəşt və

stimulların tərtib edilməsi və qiymətləndirilməsi üçün dünya təcrübəsindən istifadə edilməsi nəzərdə tutulur.

**Tədqiqatın məhdudiyyətləri:** Torpaqlarımızın işğal altında olduğu müddətdə baş verən proseslərin araşdırılmasının çətinliyi tədqiqat işinin məhdudiyyətlərindən biridir. Bu vaxta qədər aparılan araşdırmaların, statistik məlumatların işğaldan öncəki dövrə aid olması və resursların kifayət qədər olmaması müasir tədqiqat və qiymətləndirmə mexanizmlərindən istifadə olunmasını gərəkli edir.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqat işinin elmi-praktiki nəticələrinə əsasən işğaldan azad olunmuş ərazilərdə geniş miqyaslı quruculuq və bərpa işlərinin həyata keçirilməsi xərcləri artırmaqla yanaşı, eyni zamanda rəqabətqabiliyyətli iqtisadi sahələrin, o cümlədən turizmin, kənd təsərrüfatının, sənəyenin inkişaf etdirilməsi, faydalı qazıntı yataqları və xammal potensialından səmərəli istifadə edilməsi, dövlət investisiyalarının, xarici və yerli investisiyaların cəlb edilməsi, sahibkarlığın, xüsusilə də mikro, kiçik və orta biznesin inkişafının dəstəklənməsi növbəti illərdə həmin ərazilərin sosial-iqtisadi tərəqqisində rol oynayacaq və Azərbaycanın yeni inkişaf mərhələsində istiqamət olacaqdır.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Araşdırma işində xarici kapitalın Qarabağ iqtisadi rayonunun iqtisadiyatının bərpa və inkişafında rolu araşdırılır və müəyyən edilir ki, Qarabağın sosial-iqtisadi inkişafının yüksəldilməsi, infrastrukturun yaxşılaşdırılması vacib hesab olunur. Əldə edilən nəticələr regiona investitisiya cəlbinə dair layihələrin hazırlanmasında faydalı ola bilər.

# I FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN BƏRPASI VƏ İQTİSADİ RAYONLAŞMANIN FORMALAŞMASI

## 1.1. Azərbaycanın iqtisadi rayonlarının tərkibi və iqtisadi bölgüsünün hüquqi aspektləri

İqtisadi rayon dedikdə ölkənin vahid xalq təsərrüfatının ərazicə daxili bağlı olan, müxtəlif ixtisaslaşmaları, istehsal olunan məhsulların daimi mübadiləsi və digər iqtisadi əlaqələri ilə bir-biri ilə qarşılıqlı əlaqədə olan hissəsi başa düşülür.

İqtisadi rayon konstitusiya ilə müəyyən edilmiş ərazi qurumu deyil. İqtisadi rayonlar üzrə idarəetmə orqanları yoxdur. Buna baxmayaraq, statistik məlumatların böyük bir kütləsi rayonlar üzrə qruplaşdırılır və onların inkişafının iqtisadi, sosial, siyasi və demoqrafik diaqnostikası aparılır.

Regional iqtisadiyyatda diqqət çəkən ilkin anlayışlar "region", "rayon" və "ərazi" anlayışlarıdır.

***Ərazi*** yer səthinin məhdud hissəsidir, ölçüsü və yeri ilə xarakterizə olunur. ***İqtisadi rayon*** ölkənin milli iqtisadiyyatının tərkib hissəsi olub, özünəməxsus istehsal ixtisasına və möhkəm daxili iqtisadi əlaqələrə malikdir. İqtisadi rayonun məcburi xüsusiyyəti təkrar istehsal prosesinin nisbətən tam sistemidir. Yerli ədəbiyyatda nisbətən sonralar meydana çıxan ***"region"*** (bölgə) termini birmənalı şəkildə aşağıdakı mənalarda işlənir: "rayon" termininin sinonimi kimi; eyni sistemin müxtəlif ərazi nizamlarına aid olan müqayisəli əraziləri təyin etmək; rayonlar sistemində yeri müəyyən edilməmiş əraziləri təyin etmək.

***Rayon (bölgə)*** insanların yaratdığı və rayonların reallıq kimi getdikcə daha dərindən tədqiq edilməsi zamanı təkmilləşən ərazi strukturudur. Lakin bu, o demək deyil ki, cəmiyyətin və təcrübənin inkişaf qanunlarına məhəl qoymadan özbaşınalıq etmək, sahələr ayırmaq, onlar üzrə konstruktiv inkişaflar aparmaq olar. Sahə hüquqi şəkildə nə qədər çox tanınırsa, bu sahədən sosial inkişaf praktikasında bir o qədər səmərəli istifadə oluna bilər.

"İqtisadi rayon" anlayışı ilə "iqtisadi rayonlaşdırma" kimi anlayış da bağlıdır. İqtisadi rayonlaşdırma - ərazi sosial əmək bölgüsünə uyğun olaraq inkişaf etmiş

iqtisadi rayonların (bölgələrin) bölgüsüdür. Rayonlaşdırma (zonalaşdırma) təbiətin və cəmiyyətin məkan qanunauyğunluqlarını öyrənən bütün elmlər üçün mühüm metodoloji vasitədir. İqtisadi rayonlaşdırmanın elmi əsasını təbii və iqtisadi şəraitdən asılı olaraq müəyyən ərazidə müxtəlif sənaye sahələrinin cəmləşməsi prosesini sürətləndirən əmək bölgüsü, o cümlədən ərazi bölgüsü təşkil edir (Белокрылова, 2015: s.145).

Rayonlaşdırmanın əsas prinsipləri bunlardır:

- iqtisadi - ölkənin vahid təsərrüfat kompleksinin ayrılmaz, ixtisaslaşmış hissəsi kimi nəzərə alır;

- milli - işin, məişətin milli xüsusiyyətləri, müstəqil inzibati təhsil istəyi kimi nəzərə alır;

- inzibati - iqtisadi rayona daxil olan inzibati subyektlərin vəhdətini təmin edir.

İqtisadi rayonlaşdırma ərazi subyektlərinin üç mərhələli sistemi ilə xarakterizə olunur.

**1. Makrorayonlaşdırma**. Böyük tərkib hissələrinin ümumi ərazisindən ayrılması - iqtisadi rayonlar (hazırda Azərbaycan Respublikasında 14 iqtisadi rayonun yaradılması üzrə işlər aparılır – Şəkil 1).

**2. Mezozonlama.** Orta həlqənin iri iqtisadi rayonlarının - iqtisadi inzibati rayonların tərkibində bölgü: respublikalar, ərazilər, vilayətlər, muxtar vilayətlər.

**3. Mikrorayonlaşdırma.** Mezoregionlar daxilində rayonların müəyyən edilməsi: şəhər, kənd.

Beləliklə, ölkənin vahid ərazi sisteminin tərkib hissəsi kimi müxtəlif regional birləşmələr regional struktur təşkil edir, onların əlaqələri miqyasına, idarəetmə sistemindəki statusuna, müəyyən xüsusiyyətlərin ümumiliyinə və idarəetmə mexanizmlərinə görə fərqlənir (Ермошина, 2016: s.102).

İqtisadi rayonlaşdırmanın iqtisadi tikinti nəzəriyyəsi və praktikasında böyük əhəmiyyəti var:

-ən mühüm ərazi proporsiyalarını təmin etməyə kömək edir;

-vahid iqtisadi məkan rayonlararası və rayondaxili əlaqələrinin möhkəmlənməsinə töhfə verir;

-rayondaxili və sahədaxili ixtisaslaşmanın gücləndirilməsinə töhfə verir;

-federasiyanın subyektləri arasında iqtisadi cəhətdən məqsədəuyğun əmək bölgüsü yaratmağa imkan verir;

-ölkənin müxtəlif yerlərində inteqrasiya olunmuş iqtisadiyyatın inkişaf etdirilməsi imkanlarını öyrənməyə və elmi cəhətdən əsaslandırmağa imkan verir;

-dövlətin inkişafına nəzarəti təmin edir.

İqtisadi rayonlaşdırmanın aşağıdakı xüsusiyyətlərini ayırd etmək olar:

- ölkənin iqtisadi rayonlara bölünməsi daimi və həmişəlik xarakter daşımaması;
- ölkənin müxtəlif bölgələrinin təbii və iqtisadi şəraitinin orijinallığı;
- iqtisadiyyatın tarixən formalaşmış ixtisaslaşmasına, coğrafi əmək bölgüsünə əsaslanan iqtisadi münasibətlərin sabitliyi (Музыкаев, 2014: s. 52).

İqtisadi rayonlaşdırmanın xüsusiyyətləri iqtisadi rayonun sərhədlərini və onun qarşısında duran vəzifələri müəyyən edir. İqtisadi rayonun sərhədlərini müəyyən edən əsas amillərə aşağıdakılar daxildir:

- yeni inzibati rayonların formalaşdırılması;
- nəqliyyat sisteminin inkişafı;
- sənayenin və kənd təsərrüfatının inkişafı və daha da ixtisaslaşması;
- yeni sənaye obyektlərinin və sənaye mərkəzlərinin yaradılması;
- məhsuldar qüvvələrin bölgüsündə dəyişikliklər.

İqtisadi rayonlar xalq təsərrüfat kompleksinin tərkib hissəsi kimi məhsuldar qüvvələrin inkişafı prosesində formalaşır və dəyişdirilir. Onların sayı tarixi mərhələyə, bütövlükdə ölkənin və konkret ərazinin qarşısında duran siyasi şəraitə, vəzifələrə, ölkənin ictimai əmək bölgüsündə bu ərazinin yerinə görə müəyyən edilir. (Фетисов, 2015: s.145)

Azərbaycanın iqtisadi rayonları dedikdə Azərbaycan Respublikasının müəyyən iqtisadi-coğrafi mövqeyi, ərazi-iqtisadi vəhdəti, təbii-iqtisadi şəraitinin özünəməxsusluğu, tarixən inkişaf etmiş istehsal ixtisaslaşması ilə səciyyələnən rayonları nəzərdə tutulur.

**Şəkil 1: Azərbaycanın iqtisadi rayonlarının təklif/təsdiq olunan yeni bölgüsü**




**Mənbə:**https://www.azerbaijan-news.az/posts/detail/yeni-iqtisadi-rayonlar-olkemizin-gelecek-inkisafi-ucun-yeni-imkanlar-acir-1625780115, 2021

Qarabağın azadlığına qədər AR-da 10 iqtisadi rayon var idi. Qarabağ azad edildikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev ölkənin bölgələrinin yeni bölgüsü ilə bağlı fərman imzalayıb (https://president.az/az/articles/view/52389, 2021).

İndiki 10 iqtisadi bölgəsi deyil, yeni 14 iqtisadi sahəsinin yaradılması arzu edilir.

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə yeni bölgü əsasında Azərbaycanın iqtisadi rayonları müəyyən edilib: Bakı, Naxçıvan, Qarabağ, Qazax-Tovuz, Gəncə-Daşkəsən, Quba-Xaçmaz, Mərkəzi Aran, Lənkəran-Astara, Abşeron-Xızı, Dağlıq Şirvan, Şəki-Zaqatala, Mil-Muğan, Şərqi Zəngəzur, Şirvan-Salyan.

Yeni bölgü Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfər qazanması və ölkənin regional sabitliyinin bərpası ilə bağlıdır. Azad edilmiş ərazilərin bərpası və onların yenidən Azərbaycan iqtisadiyyatına daxil edilməsi zərurətini nəzərə alaraq, Qarabağ və Şərqi Zəngəzur iqtisadi bölgəsinin təşkili seçimi edildi. Qarabağ iqtisadi

zonasına Xankəndi şəhəri, Füzuli, Bərdə, Ağcabədi, Ağdam, Xocalı, Xocavənd, Tərtər və Şuşa rayonları daxildir. Şərqi Zəngəzur iqtisadi sahəsinə Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonları daxildir.

Azərbaycanın Prezidenti İlham Əliyevin bəyannaməsi ilə Şərqi Zəngəzur İqtisadi Rayonunun yaradılması təmsilçi əhəmiyyətə malikdir. “Azərbaycan Respublikasında iqtisadi rayonlarının yeni bölgüsü haqqında” Sərəncama əsasən, Şərqi Zəngəzur iqtisadi sahəsinə azad edilmiş beş rayon - Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan daxildir. Bu ərazilər ümumiyyətlə Zəngəzur yaylasının Zəngəzur silsiləsi ilə əhatə olunub və Laçın, Kəlbəcərdən Naxçıvana qədər nəhəng bir bölgəni əhatə edən şərq hissəsini təşkil edir.

Qarabağ iqtisadi dairəsinin yaradılması və Xankəndi şəhərinin, Bərdə, Ağcabədi, Ağdam, Xocalı, Xocavənd, Füzuli, Tərtər və Şuşa rayonlarının bu iqtisadi məkanına daxil olması da eyni dərəcədə simvolikdir. Bu bölgələr əlavə olaraq xüsusi təcrübələr və sosial irslə bağlıdır.

Aydındır ki, azad edilmiş torpaqların iqtisadi inkişafının başqa bir mərhələsini - transformasiya və çiçəklənmə mərhələsi təşkil edir.

## 1.2. Qarabağın təbii-coğrafi və iqtisadi birliyi, onun digər regionlarla qarşılıqlı əlaqələri

Ərazi, siyasi, həm də iqtisadi bütövlük məqsədini nəzərdə tutaraq Prezident İlham Əliyevin Azərbaycanın iqtisadi rayonlarının yeni bölünməsi ilə bağlı verdiyi tarixi fərmanı təkcə Qarabağın “yuxarı” və “aşağı” bölünməsi ilə bağlı əsrlər boyu davam edən ədalətsizliyə nöqtə qoymadı, həm də Azərbaycanın iqtisadi və siyasi inkişafında yeni bir mərhələ açdı. Qarabağ bölgəsinin yaradılması və Zəngəzura ilkin toponimin qaytarılması təbii ki, Azərbaycanın bölünməzliyinin və birliyinin yekun bəyannaməsi baxımından vacib əhəmiyyət kəsb edir.

Eyni zamanda, mahiyyət etibarı ilə bu sənəd Azərbaycanın iqtisadi inkişafı üçün yeni məqsəd və vəzifələrə, həmçinin yeni imkanlara malik yeni strategiya rolunu da daşıyır.

Azərbaycanın sonuncu iqtisadi rayonlaşdırılmasından (1995-ci il) kifayət qədər vaxt keçmişdi və hər bir rayonun həm iqtisadi potensialı, həm də onun üçün ən səmərəli inkişaf şərtlərinin müəyyən edilməsinə diqqətin cəlb edilməsinin vaxtı çatmışdı. Buna görə də əvvəlki sxemə düzəlişlərin edilməsi istənilən halda zəruri idi. Məsələn, məhz iqtisadi rayonların inkişafının sürətləndirilməsi məqsədilə Bakı şəhəri Abşeron iqtisadi rayonundan ayrıca iqtisadi rayon kimi seçilmişdir, çünki hər iki rayonun statistikasının birgə verilməsi və müəssisə və sahibkarlıq obyektlərinin cəmləşdirilməsi, iqtisadi vəziyyətin obyektiv qiymətləndirilməsini və Abşeron rayonunun potensialını və ondan istifadədə nöqsan və boşluqların müəyyən edilməsini çətinləşdirirdi (http://interfax.az/view/839245, 2021).

Bütün bunlara baxmayaraq, iqtisadi rayonlaşdırma sahəsində islahatların aparılmasında ən mühüm təkan, şübhəsiz ki, İkinci Qarabağ müharibəsində əldə edilmiş zəfər, işğal altında olan ərazilərin respublikamızın iqtisadi balansına qaytarılması və onların bərpası və ölkənin iqtisadi inkişafının ümumi mənzərəsinə yenidən inteqrasiyasının zəruriliyi olmuşdur. Bu nun nəticəsində də digər iqtisadi rayonların, həmçinin yaxınlıqda yerləşən Gəncə-Qazax və Aran rayonlarının planlaşdırılması işinin səmərəliliyinin artırılması tələb olunurdu. Bu cəhətdən onların iqtisadi idarə edilməsi yeni bölgü vasitəsilə optimallaşdırıldı (Cədvəl 1).

Bunu nəzərə alsaq, iqtisadiyyatın müxtəlif sahələri arasında koordinasiya ilə arxada qalan həm ümumi əhali, həm də özəl sahələrdən kapital qoyuluşlarının daşınması, yeni yaradılış zəncirlərinin yaradılmasının başqa bir planlaşdırma planı çərçivəsində həyata keçirilməsi və bütün sahələri əhatə etməsi çox normal ola bilər.

Məlum olduğu kimi, xalqın beş illik maliyyə tərəqqi dövrünü əhatə edən fundamental arxivlərdən biri də Azərbaycanın rayonlarının maliyyə abadlaşdırılması üzrə dövlət proqramlarıdır. Bunların hesabına rayonların qeyri-neft sahəsində mütləq rüsum gəlirlərinin payı 2005-ci il ilə müqayisədə dəfələrlə artaraq 15%-ə çatmışdır. Ən son belə proqram 2019-cu ildə təsdiq olunub və 2023-cü ilə qədər davam edəcək. Onun icrasına 17,4 milyard manat vəsait qoyulması və 12 min yeni vəzifənin yaradılması nəzərdə tutulur (https://www.stat.gov.az/source/regions/, 2022).

**Cədvəl 1: Yeni iqtisadi rayonlar və onların əsas göstəriciləri (2021)**

| İqtisadi rayonlar | Ərazi, Kvadrat km | Əhali, Min nəfər | Ümumi məhsul istehsalı, Milyard manat |
|---|---|---|---|
| Qarabağ | 8990 | 905 | 1,6 |
| Şəki-Zaqatala | 8840 | 627 | 2 |
| Şərqi Zəngəzur | 7470 | 342 | 0,124 |
| Qazax-Tovuz | 7030 | 687 | 2,5 |
| Quba-Xaçmaz | 6960 | 555 | 2,2 |
| Mərkəzi Aran | 6690 | 648 | 2,55 |
| Dağlıq Şirvan | 6130 | 323 | 1,1 |
| Şirvan-Salyan | 6080 | 630 | 2,5 |
| Lənkəran-Astara | 6070 | 950 | 1,9 |
| Mil-Muğan | 5670 | 521 | 1,86 |
| Naxçıvan | 5500 | 460 | 3,8 |
| Gəncə-Daşkəsən | 5230 | 613 | 1,9 |
| Abşeron-Xızı | 3730 | 576 | 5,4 |
| Bakı | 2140 | 2300 | 61 |

**Mənbə:** https://www.stat.gov.az/source/regions/, 2021

Müasir dövrdə işğaldan azad edilmiş torpaqlarda bərpa işləri sürətləndirilmiş templə aparılır - yollar, o cümlədən Şuşaya tarixi Zəfər yolu çəkilir, dağılmış infrastruktur yenidən qurulur, elektrikləşdirmə və su təchizatı problemləri həll edilir. Bütün bunların həyata keçirilmə məqsədlərindən biri işğal zamanı öz doğma yurdundan didərgin salınmış soydaşlarımızın tez bir zamanda öz yurd-yuvalarına qayıtmasını təmin etməkdir (https://science.gov.az/az/news/open/18658, 2021).

İşğaldan azad edilmiş rayonların mənzərəli yerlərinin, bu diyarın zəngin təbiətinin - şəfalı bulaqların, sıx meşələrin, şəffaf bulaqların, ucsuz-bucaqsız çöllərin, uca dağların seyr edilməsi zamanı onların nə qədər yüksək iqtisadi və turizm potensialına malik olduğunu anlamaq heç də çətin deyildir.

Hazırda işğaldan azad edilmiş torpaqların bir çox ərazilərində işlər qızğın şəkildə həyata keçirilir, məsələn, kəlbəcərli arıçılar artıq burada öz təsərrüfatlarını yaradıblar.

Kənd Təsərrüfatı Nazirliyi və işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üzrə Əlaqələndirmə Qərargahı yanında İqtisadi Məsələlər üzrə İşçi Qrupunun pilot layihəsi çərçivəsində Qoçdaş yaylağına Kəlbəcər rayonundan olan fermerlərə məxsus xırdabuynuzlu mal-qara və arı ailələrinin

heyvandarlıq təsərrüfatları köçürülmüşdür. Hazırda burada 10 min baş damazlıq qoyunçuluq təsərrüfatı və 500 arı ailəsi yerləşir. Bundan başqa, artıq otlaqlarda Kəlbəcər balının ilk süzülməsinə başlanılıb, arıçılıq təsərrüfatlarında bol məhsul yığımına başlanılıb (https://vergiler.az/news/economy/14127.html, 2021).

İqtisadiyyatın əsas sahələrinin inkişafında Qarabağın payı keçən il cəmi 0,7 faiz olub, təəccüblü odur ki, əvvəlki Kəlbəcər-Laçın iqtisadi rayonunda isə 0,1 faiz olub (https://www.stat.gov.az/source/regions/, 2022).

Azad edilmiş torpaqların iqtisadiyyatının meliorativ vəziyyətinin təkbaşına proqram əsasında həyata keçirilməsinə son qoyulması mühüm əhəmiyyət kəsb edir. Bu yeni bölgü hesabına iş daha səriştəli şəkildə tamamlanacaq və ən yaxşı üstünlükləri gətirəcək və azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası maliyyə hazırlığının və ümumilikdə idarə heyətinin uyğunlaşma qabiliyyətini formalaşdıracaq.

Azərbaycanın bütün əraziləri üçün adət olan əhliləşdirilmiş heyvanlara və əkinçiliyə baxmayaraq (Qarabağın adi şəraiti ümumiyyətlə iki biznesin hər birində böyük nəticələr verirdi), Qarabağ və Şərqi Zəngəzur iqtisadi bölgələri mühüm diqqətəlayiq müasir və səyahət sənayesi potensialına malikdir, çünki zəngin mineral anbarlar kimi, mineral suları, abad suları və s. zəngindir. Mütəxəssislər hələ ki, azad edilən bölgələrin maliyyə imkanlarını tədqiq edir və işləyirlər, lakin bu gün əlçatan olan məlumatların işığında, bu ərazilərin yaxşılaşdırılmasının çox böyük töhfələr verəcəyini söyləyə bilərik.

Bütün bu qeyd edilənlərdən əlavə, Şərqi Zəngəzur, Zəngəzur dəhlizinin bir növ davamına çevriləcək və onun istifadəyə verilməsi ilə Azərbaycan praktiki olaraq regionun nəqliyyat qovşağına çevriləcək. Bu, təkcə Azərbaycanın müxtəlif bölgələrinin sahibkarlarını deyil, həm də qonşu dövlətlərdən olan sahibkarları da birləşdirəcək və onlara dünya bazarlarına çıxmaq imkanı verəcək.

Hal-hazırda ən vacib məsələ işğaldan azad edilmiş ərazilərdə infrastrukturunun bərpasını sürətlə başa çatdırmaq və bu rayonların iqtisadi potensialının dirçəldilməsi prosesinin tempini sürətləndirməkdən ibarətdir.

# II FƏSİL. QARABAĞ İQTİSADİ RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİ

## 2.1. Regional investisiya daşıyan infrastrukturların səmərəliliyinin əsaslandırılması

İqtisadiyyatın dirçəlməsində və ölkənin maliyyə potensialının genişləndirilməsində xarici investisiyalar mühüm rol oynayır. Dünya təcrübəsi göstərir ki, investisiyaların təsiri daha güclü və effektivdir (Allahverdi F., 2020).

İşğaldan azad edilmiş bölgələrdə turizm və istirahət, qida sənayesi, emal sənayesi, tibb, metallurgiya, mədənçıxarma, sənaye, taxılçılıq, üzümçülük, pambıqçılıq, quşçuluq, meyvəçilik, tərəvəzçilik, heyvandarlıq, arıçılıq, tikinti və bir çox sektorlar üzrə potensial var. Bu sahələrin inkişafı üçün investisiyaların cəlb edilməsi istər qeyri-neft idxalının və ixracının artırılması, istərsə də dəyər zəncirlərinin birləşməsi üçün əhəmiyyətli olacaq. Qarabağ regionunda yenidən qurulma işləri zamanı "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasından istifadə ilə turizm sektorunun dirçəlməsi mümkündür. Bu sahələrdə tikinti sektoru, turizm sektoru, kənd təsərrüfati sektorları üzrə geniş imkanlar var.

Qaytarılan ərazilərdə iqtisadiyyatın əsas sahəsi kənd təsərrüfatı olmalıdır, bu sahə bütün Azərbaycan iqtisadiyyatına böyük töhfə verəcəkdir. Lakin buna rayonda əhəmiyyətli ərazilərin minalanması mane olur. Minalardan tam təmizləmə təxminən 10 il çəkə bilər. Hökumət də öz növbəsində regionun inkişafına sərmayə qoymağa hazırdır. Bakı 10 il ərzində Qarabağın bərpasına təxminən 60 milyard dollar xərcləyə bilər (https://www.stat.gov.az/source/regions/, 2022).

Azad edilmiş bölgələrdə yaradılacaq yeni iqtisadi dəyərimiz Azərbaycan dövlətinin maliyyə xərclərini olduqca üstələyəcəkdir. Həmin ərazilərin bərpası nəticəsində bir çox yeni iş yerləri açılacaqdır. Beləliklə də, yeni infrastruktur layihələrinin reallaşdırılması vətəndaşlarımızin işlə təmin olunmasında müsbət təsirlər göstərəcəkdir. Bundan başqa, iqtisadiyyatın inkişafı bir çox yeni iş yerlərinin açılmasına zəmin yaradacaqdır. Müzəffər ordumuzun qələbəsi nəticəsində işğaldan

azad olunan bu bölgələrimiz qeyri-neft sektorunun daha da böyüməsinə, o cümlədən də Azərbaycan iqtisadiyyatının daha çox çiçəklənməsinə təkan verəcəkdir.

İlk növbədə əkin sahələri minalardan təmizlənməlidir. Ermənistan tərəfi hələ də minalanmış ərazilərin xəritələrini təqdim etməyib.

Kənd təsərrüfatı ilə yanaşı, regionda turizm və mədən sənayesini də inkişaf etdirmək təklif edilir - müharibədən sonra Azərbaycan Ermənistanla sərhəddə yerləşən Kəlbəcər rayonundakı Zod qızıl yatağının 2/3 hissəsini alıb (https://hafta.az/mubahiseli-zod-qizil-yatagi-arasdirma-%C2%A0-292270-xeber.html, 2020).

Qarabağ iqtisadi rayonunda İnvestisiya infrastrukturunun ixtisaslaşmış təşkilatının yaradılmasının məqsədəuyğunluğu aşağıdakılarla bağlıdır:

1) investisiya infrastrukturu təşkilatlarının (xüsusən də İnvestisiya Agentliyi) olması federal təşkilatlar üçün regionun investisiya mühitini qiymətləndirmək üçün meyarlardan biridir;

2) dövlət orqanlarında, bir qayda olaraq, investisiya fəaliyyətində yüksək ixtisasa malik kadrlar yoxdur (kadr dəyişikliyinin yüksək olması halında amil daha da ağırlaşır);

3) icra hakimiyyəti orqanları işçilərinin çoxşaxəli vəzifələri (investisiya layihələrinin dəstəklənməsi ilə yanaşı, standartların yaradılması, analitik və digər fəaliyyətlər həyata keçirilir);

4) dövlət hakimiyyətinin icra hakimiyyəti orqanlarının işçiləri arasında layihənin uğurla həyata keçirilməsində şəxsi marağın olmaması (investisiya infrastrukturu təşkilatlarında işçilərin əmək haqqı cari fəaliyyətə görə daimi və mükafat hissəsindən ibarətdir) təşkil edir.

Azərbaycan Respublikasının aparıcı regionlarının investisiya infrastrukturu təşkilatlarının yaradılması təcrübəsinin təhlili göstərir ki, onlar, bir qayda olaraq, regional büdcədən (hökumət tapşırığı ilə) və ya sonradan maliyyələşdirilən dövlət qurumu şəklində yaradılır. Əmlakın idarə edilməsi məsələlərində qurumun fəaliyyətinə nəzarəti regional əmlakın idarə olunmasına məsul olan nazirlik, iqtisadi siyasət və investisiya fəaliyyətinə məsul olan nazirlik həyata keçirir.

Bəzi hallarda layihə fəaliyyəti və iri investisiya layihələrinin dəstəyi əvvəllər yaradılmış kiçik biznesə dəstək infrastrukturunun təşkilatlarına verilmişdir. Onlar kiçik, orta və böyük biznesin layihələrini dəstəkləyirlər.

Rayonun yenidən qurulması həm dövlət investisiyaları hesabına, həm də özəl vəsaitlərin cəlb edilməsi ilə həyata keçiriləcək. Azərbaycan tərəfinin xarici sərmayələrə açıq olması o demək deyil ki, onlarsız edə bilməz. 2021-ci ildə Bakı regionun bərpasına dövlət investisiyaları şəklində təxminən 1,5 milyard dollar xərcləmək niyyətindədir (https://www.stat.gov.az/source/regions/#, 2022)

Naxçıvan nəqliyyat dəhlizinin yenidən qurulması, Azərbaycandan Türkiyəyə Ermənistan və Naxçıvan ərazisindən keçən dəmir yolunun bərpası regionun iqtisadiyyatına da təsir edəcək. Naxçıvanla əlaqənin bərpası bütün region ölkələri üçün faydalıdır (http://interfax.az/view/821046/az, 2020).

Azərbaycanda iqtisadi sahələrinin yeni bölgüsü maliyyə yüksəlişinə, daha effektiv vençur strategiyasına və uyğunlaşa bilən ərazi idarəçiliyinə əlavələr edir. 44 günlük müharibə zamanı azad edilmiş rayonların abadlaşdırılmasına təkan verəcək. Bu irəliləyiş azad edilmiş ərazilərin çiçəklənməsi üçün birləşmiş tənzimləmə kimi qəbul oluna bilər. Azad edilmiş ərazilərin Azərbaycan iqtisadiyyatına reinteqrasiyası üçün əlavə əhəmiyyət kəsb edir, çünki bu, maliyyə yerlərinin təkmilləşdirilməsinin təşkilinin səmərəliliyinin genişləndirilməsini, idarəetmənin və yenidən qurulmasının səriştəsinə zəmanət verilməsini tələb edir.

Şübhəsiz ki, bərpadan sonra işğaldan azad edilmiş ərazilərdə iqtisadi imkanların reallaşması Azərbaycanın iqtisadi vəziyyətinə ciddi təsir göstərəcək. İşğal nəticəsində Qarabağda 7 minə yaxın müəssisə bağlanıb. Gəlirlərin 24%-ni taxılçılıqdan, 41%-ni şərabçılıqdan, 46%-ni kartofdan, 18%-ni ət məhsullarından, 34%-ni süd məhsullarından təmin edirdilər. Əvvəllər işğal olunmuş ərazilərdə qızıl, mis, civə, xromit, qurğuşun, sink kimi müxtəlif zəngin faydalı qazıntı yataqları mövcuddur. İşğal illərində Ermənistan tərəfindən qeyri-qanuni istismara məruz qalıblar. İstehsal güclərinin bərpası iqtisadi sahələrin, xüsusilə də kənd təsərrüfatının inkişafına mühüm töhfə verəcək. İlkin hesablamalara görə, yaxın illərdə yalnız yeni yaradılmış Şərqi Zəngəzur rayonu sənaye, kənd təsərrüfatı, heyvandarlıq və turizm

kimi sahələri stimullaşdırmaq üçün yaxşı imkanlara malik olduğundan Azərbaycan iqtisadiyyatında 4 faizlik artım əldə edə biləcək. İşğal zamanı rayonun Azərbaycanın ümumi ÜDM-də xüsusi çəkisi 0,1%-ə qədər azalsa da, yaxın gələcəkdə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarında kənd təsərrüfatı və kənd təsərrüfatı məhsulları istehsalının reallaşdırılması mümkün olacaq və 1,76 milyard dollar dəyərində kənd təsərrüfatı və sənaye məhsulları istehsal ediləcək (https://aircenter.az/az/post/yeni-iqtisadi-rayonlar-vasitesile-qarabag-qafqazin-iqtisadi-drayverine-cevrilecek-789, 2021).

Azad edilmiş bölgələr kritik davamlı enerji potensialına, xüsusən də hidroenergetikaya malikdir. Təxminən 2,56 milyard kubmetr su və ya Azərbaycanın su ehtiyatlarının 25%-i su elektrik stansiyalarının (SES) inkişafı üçün açıq qapılar açan Qarabağa verilir. 44 günlük müharibə zamanı Azərbaycan erməni qəsbkarları tərəfindən amansızcasına istifadə edilən və sonradan məhv edilən su elektrik stansiyalarına komandanlığı öz üzərinə götürdü. Bu elektrik stansiyalarının böyük bir hissəsi yenidən qurulub, digərləri isə bərpa olunur. Qarabağın günəş işığı və külək enerjisi müəssisələrində də böyük potensialı var. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin başlanğıc qiymətləndirmələrinə görə, azad edilən bölgələr 4000 meqavatdan çox günəş enerjisi və 500 meqavat külək enerjisi gücünə malikdir. Kəlbəcər və Laçın rayonları külək enerjisi üçün inanılmaz potensiala malikdir, Zəngilan, Cəbrayıl və Füzuli rayonları isə günəş enerjisi potensialı ilə zəngindir. (https://aircenter.az/az/post/yeni-iqtisadi-rayonlar-vasitesile-qarabag-qafqazin-iqtisadi-drayverine-cevrilecek-789, 2021).

Azad edilmiş bölgələrin maliyyə imkanlarını başa düşmək üçün dəstəklənən nəqliyyat vasitələrinin təməlinin olması vacibdir, buna görə də azad edilmiş ərazilərin bərpası üçün proqramın əsas başlıqlarından biri əlaqələndirilmiş nəqliyyat vasitələri çərçivəsinin formalaşdırılmasıdır. Qarabağın əsas aerovağzal terminalı olan Füzuli Beynəlxalq Aeroportu əvvəllər yığılıb və təcrübə qaçışları tamamlanıb. Bu aerovağzalın uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni isə 60 metrdir. Həmçinin, Qarabağın Zəngilan və Laçın rayonlarında dünya miqyasında iki əlavə hava terminalı salınıb (https://www.bbc.com/azeri/azerbaijan-58453911, 2021).

İşğaldan azad edilmiş torpaqların kənd təsərrüfatı, energetika, nəqliyyat və digər sahələrdə bütün qeyd olunan iqtisadi perspektivləri göstərir ki, onların həyata keçirilməsi və bölgü yolu ilə səriştəli idarə olunması Qarabağın və Azərbaycan iqtisadiyyatının iqtisadi inkişafına mühüm töhfə verəcəkdir. Deməli, Qarabağın dirçəlişinin məqsədlərindən biri də Ermənistanla münaqişədən əvvəl Azərbaycanın iqtisadiyyatındakı payını qaytarmaqdır. Bu regionların inkişafı və sonradan "Şimal-Cənub", "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizlərində iştirak Qarabağı Zaqafqaziyanın yaxşı təşkil olunmuş regionuna çevirəcək. Bu iqtisadi amil erməni işğalı zamanı olduğu kimi çəkişmə yerinə deyil, regional əməkdaşlığın simvoluna çevriləcək (https://aircenter.az/az/post/yeni-iqtisadi-rayonlar-vasitesile-qarabag-qafqazin-iqtisadi-drayverine-cevrilecek-789, 2021).

İşğaldan əvvəl azad edilmiş rayonlar üzümçülük, pambıqçılıq, taxılçılıq və əhliləşdirilmiş heyvandarlıqda unikal təklifə malik idi. Bu ərazilərdə əkinçilik yaradılması və əmtəəçilik imkanları çox böyükdür. Konkret olaraq Şuşa, Füzuli, Kəlbəcər və Zəngilan rayonlarının turizm sənayesi potensialı inanılmazdır. Planetin ən köklü insan məskənlərindən biri olan Azıx mağarası Füzuli ərazisində yerləşir. Kəlbəcərdə rifah turizm sənayesi yaradılmalı, qaynar su mənbələri ilə zəngin, sosial turizm sənayesi kursları yenidən qurulmalıdır. Erməni təxribatına məruz qalan ərazilərə gəlişi bir az vaxt və pul tələb etsə də, əminəm ki, tezliklə orada geniş layihələr həyata keçiriləcək.

Tezliklə Araz çayı üzərində iki su elektrik stansiyasının – "Xudafərin" və "Qız qalası" nın tikintisi nəzərdə tutulur ki, bu da azad edilmiş rayonları fasiləsiz enerji ilə təmin edəcək. İki stansiya yaxınlıqdakı enerji ehtiyaclarının toplanmasında və ölkənin enerji potensialının genişləndirilməsində mühüm rol oynayacaq (https://e-qanun.az/framework/33288, 2022).

Müntəzəm aktivlərin və mineralların yaxşılaşdırılması spekulyasiya ilə bağlı inanılmaz imkanlara zəmanət verir. Son vaxtlar Azərbaycanın qeyri-neft ixracatında qızıl oyunlarının əhəmiyyətli təsiri olub. İstər dünya biznes sektorlarında qızılın bahalaşması, istərsə də bu sahədə təşkilatlar tərəfindən bu gün yaradılan innovasiyaların əlçatanlığı deməyə əsas verir ki, azad edilmiş bölgələrdə qızıl

anbarlarının ikiqat alqı-satqısı Azərbaycan iqtisadiyyatına çox ciddi öhdəliklər qoyur.

Qarabağ iqtisadi rayonunun investisiya layihələrinin reallaşdırılması zamanı risklərin qiymətləndirilməsi üçün BERİ metodundan istifadə edəcəyik. Bu qiymətləndirmə müxtəlif informasiya mənbələrinə, hesabatlara, KİV-ə istinadım nəticəsində formalaşdırdığım fikirlər əsasında yaranmışdır və bu qiymətləndirmə mənim subyektiv fikrim olduğu üçün, investisiya mühitinin qiymətləndirilməsinin həqiqi nəticələrini özündə ehtiva etməyə bilər. BERİ metodundan istifadə zamanı biz 15 faktor sadalayacağıq və bu 15 faktor üzərindən təhlillər aparacağıq. Bu 15 faktorun da özlərinə aid balları mövcuddur. İndi isə adından bəhs etdiyimiz bu 15 faktorla Qarabağ iqtisadi rayonunun investisiya mühitini qiymətləndirək.

1. Siyasi stabillik- Siyasi stabillik bildiyimiz kimi iqtisadi inkişafın təməl faktorlarından biridir. Ölkə daxilində siyasi stabillik olduğu zaman həmin ölkəyə əksər hallarda xarici investorlar tərəfindən müxtəlif sektorlara yatırımlar edilir. Siyasi stabillik bir sıra məqamlarla təhlil edilə bilər, bunlara misal kimi terorizmlə mübarizəni, ölkə daxilində olan müxalifət partiyaların çəkişmələrini, ölkədə nümayişlərin olma sıxlığını, ölkədə baş verən cinayətkarlıq əməllərinin sayını və s. aid etmək olar. Sevindirici haldır ki, bu məqamlardan heçbiri Azərbaycan respublikasının ərazisində o cümlədən Qarabağ iqtisadi rayonun tərkibində yox dərəcəsindədir.

Qarabağ iqtisadi rayonunun bəzi ərazilərinin 30 illik işğal sonrasında 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı altında qəhrəman Azərbaycan ordusunun silahlı qüvvələri tərəfindən azad edilməsi bu ərazinin yenidən canlanması və regionun siyasi stabilliyinin bərpasında misilsiz rol oynadı. Bundan əlavə, işğaldan azad edilmiş ərazilərin digər regionlara sürətli inteqrasiyası və intensiv bərpası xarici investorları bölgəyə cəlb etmək üçün zəmin yaratmışdır. Füzuli rayonunda 7 ay ərzində tikilən beynəlxalq hava limanı, minlərlə hektar ərazinin minadan təmizlənməsi və nəqliyyat infrastrukturunun sürətli bərpası dünya mətbuatında geniş yer almış və regionun siyasi stabilliyinin sürətli bərpa edildiyini bütün dünyaya göstərmişdir. Qarabağ

iqtisadi rayonunun bərpası və görülən işlər barədə növbəti planlarda ətraflı məlumat veriləcəkdir. Siyasi stabillik faktoru üzrə qiymətləndirməm 3 baldır.

2. Xarici investisiyalara münasibət və mənfəətin transferti- Azərbaycan qanunvericiliyinə əsasən, xarici sərmayələr tam və qeyd-şərtsiz hüquqi müdafiədən istifadə edir və xüsusi hallar istisna olmaqla, mənimsənilməklə milliləşdirilə bilməz. Özəl şəxslər sərbəst şəkildə sahibkarlıq subyektlərində öz maraqlarını yarada, əldə edə və sərəncam verə bilərlər. Xarici vətəndaşlar, təşkilatlar və müəssisələr torpaq icarəyə götürə bilər, lakin mülkiyyət hüququna malik ola bilməzlər.

Son bir neçə ildə Azərbaycan Respublikası xarici sərmayələri cəlb etmək üçün fəal şəkildə çalışır. Azərbaycana birbaşa xarici sərmayə axını son illər, ilk növbədə, enerji sektoruna davamlı olaraq artıb. İqtisadiyyatın diversifikasiyası üçün hökumətin prioritet sektorlarına (kənd təsərrüfatı, nəqliyyat, turizm və İKT) xarici sərmayələr indiyədək məhduddur.

Xarici investisiyalar, “Xarici İnvestisiyaların Mühafizəsi” haqqında, “İnvestisiya fəaliyyəti” haqqında, qanunlara uyğun olaraq tam və qeyd-şərtsiz hüquqi müdafiədən və beynəlxalq müqavilə və müqavilələrdə əks olunan təminatlardan istifadə edirlər. Azərbaycanın Xarici İnvestisiyaların Mühafizəsi haqqında Qanunu xüsusi hallar istisna olmaqla, xarici investorları milliləşdirmə və rekvizisiyadan qoruyur.

Əcnəbilərə tam mülkiyyətində olan törəmə müəssisə açmaq, mövcud şirkətin səhmlərini almaq və ya yerli tərəfdaşla birgə müəssisə yaratmaqla sahibkarlıq subyektlərini qeydiyyata almağa icazə verilir. Xarici şirkətlərə həmçinin vergi orqanlarında nümayəndəliyini və ya filialını qeydiyyata almaqla yerli hüquqi şəxs yaratmadan Azərbaycanda fəaliyyət göstərməyə icazə verilir.

Əcnəbilərə Azərbaycanda torpaq sahibi olmaq icazəsi verilmir, lakin icarəyə torpaq və daşınmaz əmlaka sahib olmaq icazəsi verilir. Azərbaycan respublikasının qanunlarına görə, dövlət mədənçıxarma, neft-qaz, peyk rabitəsi və hərbi silah sektorlarında fəaliyyət göstərən şirkətlərin nəzarət paketini özündə saxlamalı, xarici və ya yerli özəl mülkiyyəti bu sənayelərdə şirkətlərin 49 faiz payı ilə məhdudlaşdırmalıdır. Media sektorunda xarici sahiblik də ciddi şəkildə məhduddur.

Bundan əlavə, telekommunikasiya, dəniz və hava nəqliyyatı, sığorta və digər tənzimlənən sənaye sahələrində fəaliyyət göstərən xarici və ya yerli şirkətlərə iş aparmaq üçün xüsusi lisenziya tələb olunur.

Azərbaycanda iqtisadi azadlıq yüksək səviyyədədir. Bu reallıqdır ki, əksər xarici investorlar iqtisadi azadlıq indeksi yüksək olan ölkələrə yatırımlar etmək düşüncəsindədirlər. İqtisadi azadlığı ölçmək üçün İqtisadi azadlıq indeksindən istifadə etmək məqsədəuyğundur. Azərbaycan Respublikasında iqtisadi azadlıq indeksinin ümumi göstəricisi 2020-ci ildə 69.3 idisə, artıq 2021-ci ildə bu göstərici 70.1-ə qədər yüksəlmişdir. Diaqram 1-də Azərbaycan Respublikası, 2020-2021-ci il üzrə İqtisadi azadlıq indeksinin müyyən göstəriciləri üzrə təsvir edilmişdir.

Azərbaycanın iqtisadi azadlıq balı 61,6 olmaqla, iqtisadiyyatı 2022-ci il İndeksində ən azad 75-ci yerdədir. Azərbaycan Avropa regionunun 45 ölkəsi arasında 37-ci yerdədir və onun ümumi balı regional orta göstəricidən aşağı, lakin dünya ortalamasından yüksəkdir. Azərbaycanın iqtisadi artımı 2017-ci ildən 2019-cu ilə qədər sürətləndi, 2020-ci ildə mənfi oldu və 2021-ci ildə isə yenidən yüksəldi.

İqtisadi azadlıq hər bir insanın öz əməyinə və əmlakına nəzarət etmək üçün əsas hüququdur. İqtisadi cəhətdən azad cəmiyyətdə fərdlər istədikləri şəkildə işləmək, istehsal etmək, istehlak etmək və sərmayə qoymaqda azaddırlar. İqtisadi cəhətdən azad cəmiyyətlərdə hökumətlər əməyin, kapitalın və malların sərbəst hərəkət etməsinə icazə verir və azadlığın özünü qorumaq və saxlamaq üçün zəruri olan həddən artıq azadlığa məcbur etmək və ya məhdudlaşdırmaqdan çəkinir.

İqtisadi azadlıq daha böyük rifah gətirir. İqtisadi Azadlıq İndeksi, iqtisadi azadlıq və müxtəlif müsbət sosial və iqtisadi məqsədlər arasında müsbət əlaqəni sənədləşdirir. İqtisadi azadlıq idealları daha sağlam cəmiyyətlər, daha təmiz ətraf mühit, adambaşına daha çox sərvət, insan kapitalının inkişafı, demokratiya və yoxsulluğun aradan qaldırılması ilə güclü şəkildə əlaqələndirilir. Azərbaycanda iqtisadi azadlıq qənaətbəxş səviyyədədir. Bu faktoru 1.6 balla qiymətləndirirəm.

**Diaqram 1: Azərbaycanda 2020-2021-ci illər üçün İqtisadi azadlıq indeksi göstəriciləri**




**Mənbə:** Heritage Foundation:https://www.heritage.org/index/explore?view=by-region-country-year, 2022

3. Milliləşdirməyə meyl- Qarabağ İqtisadi rayonunun bəzi ərazilərinin yaxın keçmişdə azad olması, həmin ərazilərin bərpası üçün müəyyən qədər vəsait tələb edir. Bu səbəbdən, ölkəmizin hazırki prioritet siyasətlərindən biri sözü gedən bölgəyə xarici investisiya cəlb etmək olmalıdır. Bunun nəticəsi olaraq, Qarabağ iqtisadi rayonunda milliləşdirməyə meyli aşağı səviyyədə saxlamaq məqsədə uyğun görsənir. İlk əvvəl onu qeyd etmək lazımdır ki, Qarabağ iqtisadi rayonunun sözü gedən əraziləri işğaldan yeni azad olduğu üçün orada özəl mülklər yox dərəcəsindədir. Qarabağda mövcud olan təbii sərvətlər, turizm və hasilat sənayesi də dövlətimizə məxsusdur. Bu faktor üzrə qiymətləndirməm 1.4 baldır.

4. İnflyasiya- İnflyasiya mərkəzi banklar, hökumət siyasətçiləri, istehsalçılar və ya istehlakçılardan asılı olmayaraq bütün iqtisadiyyat iştirakçılarının hərəkətlərinə təsir edən kritik və dövri makro göstəricidir. Ən əsas fundamental səviyyədə, inflyasiya investorun etdiyi sərmayələrdən əldə etdiyi gəlirlərə də təsir edir. Təbii haldır ki, hər bir investor inflyasiya dərəcəsi aşağı hədlərdə olan ölkələrə yatırım etməyə üstünlük verir. Azərbaycanda 2016-2017-ci illərdə 12 faizlərə çıxan

inflyasiya dərəcəsi, artıq 2018-ci ildə 2.27 % faizə düşmüşdür. Diaqram 2-də 2007-2020-ci il intervalında Azərbaycanda olan inflyasiya dərəcələri təqdim edilmişdir.

**Diaqram 2: Azərbaycanda inflyasiya dərəcəsi dəyişimi 2007-2020-ci illər**




**Mənbə:** Macrotrends:https://www.macrotrends.net/countries/AZE/azerbaijan/inflation-rate-cpi, 2022

Bu faktor üzrə qiymətləndirməm 1.2 baldır.

5. İqtisadi artım- Çox insana aydındır ki, bir ölkədə iqtisadi artımı sürətləndirən ən vacib amillərdən biri ölkənin faydalı qazıntılarının olmasıdır. Sevindirici haldır ki, ölkəmiz faydalı qazıntılarla kifayət qədər zəngin ölkədir. Qarabağ iqtisadi rayonunda da geniş miqyasda faydalı qazıntılara rast gələ bilərik. Bu da öz-özlüyündə bölgəyə xarici investisiyanın cəlbi imkanlarını artırır. Cəlb edilən investisiyalar Qarabağ iqtisadi rayonunun erməni işğalçılarından təmizlənmiş bölgələrin bərpasında da böyük rol oynayacaqdır. Nəticə etibari ilə həm regionun, həm də ölkəmizin iqtisadi artımında müsbət dəyişikliklər olacaqdır.

2021-ci ildə iqtisadiyyatın bərpası qeyri-neft və qaz sektorları hesabına baş verir. Üçqat şokdan - Covid-19 pandemiyasından, neft qiymətlərindəki enişdən və Qarabağ münaqişəsinin alovlanmasından sonra Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) 2020-ci ildə 4,3 faiz azalıb.Bu faktor üzrə qiymətləndirməm 2.6 baldır (https://uploads.cbar.az/assets/97aa174a150aff7358f5aedbc.pdf, 2020).

6. Əmək haqqı məsrəfləri və yaxud iş qüvvəsinə məsrəflər- 2021-ci il dekabrın 1-inə olan məlumata görə, ölkədə muzdla fəaliyyət göstərən işçilərin sayı, 2020-ci ilin dekabrın 1-i ilə müqayisədə 20 min nəfər artaraq 1704,9 min nəfərə çatmış, onlardan 905,7 min qədəri dövlət sektorunda, 799,2 min nəfər isə qeyri-dövlət sektorunda işləmişdir (https://uploads.cbar.az/assets/97aa174a150aff7358f5aedbc.pdf, 2020).

Hər ölkədə əmək haqqı müxtəlif strukturlar tərəfindən müəyyən edilir. Bir qismində icra hakimiyyəti, digərində qanunverici orqanlar, bir digərində isə müxtəlif təşkilatlar tərəfindən müəyyən edilir. İndiki vəziyyətdə, Bakıda ortalama aylıq əmək məsrəfi 1000 (588 USD) manat qədər olsa da, ölkənin əksər regionlarında bu rəqəm Bakıdakı mövcud göstəricidən təqribən 2 dəfə aşağıdır. Bunu göz önünə qoysaq, respublikamızın digər şəhərlərində və digər rayonlarında fərqli minimum əmək haqqı müşahidə edə bilərik. 2022-ci il 1 yanvardan sonrakı dövrdə aylıq minimum əməkhaqqı 300 AZN (176 USD) olaraq müəyyənləşdirilmişdir. Xatırladaq ki, bu göstərici 2019-cu ildən 2022-ci ilə kimi 250 AZN (147 USD) olaraq müəyyən edilmişdir. Aşağıdakı cədvəl 2-də bir sıra Avropa və digər ölkələrin orta aylıq əmək haqqısının müqayisəsini görə bilərik.

**Cədvəl 2: Orta aylıq əmək haqlarının müqayisəsi. 2020 – ci il**

| Ölkələr | Orta aylıq əmək haqqı,dollarla |
|---|---|
| Avstraliya | 4600 |
| Avstriya | 4428 |
| ABŞ | 5783 |
| Almaniya | 4479 |
| Polşa | 1271 |
| Macarıstan | 2117 |
| Litva | 2651 |
| Çexiya | 2490 |
| İƏYT bütövlükdə | 4097 |
| Azərbaycan | 414 |

**Mənbə:** Cədvəl data.oecd.org.saytının məlumatları əsasında hazırlanıb.

Nəticə olaraq belə qənaətə gələ bilərik ki, ölkəmizin əməkhaqqı məsrəfləri ilə bağlı irəli sürdüyü siyasət qənaətbəxşdir, lakin Bakı şəhərindən başqa digər regionların da işçi qüvvəsinin potensialını artırmaq üçün müəyyən tədbirlər

görülməli, işçilərin öz bilik və bacarıqlarını inkişaf etdirmələri üçün sahələri üzrə müvafiq təlimlərə yönləndirilməlidir. Bütün bunlar işçi qüvvəsinin mövcud bazar şəraitinin tələblərinə cavab vermələri üçün və işsiz statusunda olan potensial işçi qüvvəsinin əmək bazarlarına cəlbi üçün görülməsi zəruri olan tədbirlər sırasındadır. İşçi qüvvəsi əmək bazarının müvafiq tələblərinə cavab verdikdən sonra işçinin potensialına və gördüyü işə uyğun olaraq əməkhaqqının artırılması üçün müvafiq tədbirlər görülməlidir. Hal-hazırki inflyasiya vəziyyətini nəzərə alsaq əməkhaqqının artırılması istiqamətində tədbirlər görülməsini zəruri hal olaraq dəyərləndirirəm. Bu faktor üzrə qiymətləndirməm 1.5 baldır.

7. Tədiyə balansının vəziyyəti- Qarabağ iqtisadi rayonunda hələ ki, ixrac potensialı elə də yüksək olmadığı və daha çox üstünlüyün idxala verildiyi üçün tədiyə balansının bu region üçün qənaətbəxş səviyyədə olmamasını qeyd etmək doğru olardı. Buna səbəb kimi yeni azad olmuş ərazilərin yenidən bərpası üçün ölkə xaricindən də tikinti materiallarının idxalının yüksək səviyyədə olmasını qeyd etmək olar. Ümumilikdə sözü gedən regionda ixracı artırmaq istiqamətində tədbirlər görülməlidir. Sənaye və kənd təsərrüfatı məhsullarının istehsalını və ixracını artırmağın özü belə tədiyə balansına öz müsbət təsirlərini göstərəcəkdir. Bildiyimiz kimi, ixrac idxaldan nə qədər çox olarsa tədiyə balansıda özündə bir o qədər müsbət göstəricilər əks etdirəcəkdir. Bütün bu proseslər Qarabağın bərpa işləri bitdikdə və bu regionun digər ərazilərimizə inteqrasiyasından sonra öz həlli yolunu tapacaqdır.

Ümumilikdə, ölkəmizdə torpağlarımızın azad edildiyi ildə (2020) tədiyə balansının əsas göstəricilərindən biri kimi hesab edilən Cari Əməliyyatlar Balansı tarazlığa yaxın bir vəziyyətdə yer almışdır. Əsasən bu dövrdə qeyri-neft sektorunun yaxşılaşması CƏB-ə öz müsbət təsirini göstərmişdi. 2020-ci ildə mövcud Pandemiya vəziyyəti səbəbindən qeyri-neft sektorunda idxalın azalması tədiyə balansının tarazlaşmasında əsas rollardan birini oynamışdır. 2020-ci il üzrə ümumi saldo isə -1987.7 təşkil edirdi. Müqayisə məqsədli, Azərbaycanda 2010-2020-ci illər intervalı üçün Tədiyə balansı saldosunun illər üzrə dəyişməsi Diaqram 3-də təsvir edilmişdir (https://uploads.cbar.az/assets/97aa174a150aff7358f5aedbc.pdf, 2020).

**Diaqram 3: 2010-2021 Azərbaycanda Tədiyə balansı**




**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi Bankı (https://www.cbar.az/page-43/external-sector-statistics, 2021)

Bu faktor üzrə qiymətləndirmənin 1.5 olduğu qənaətindəyəm.

8. Valyuta konvertasiya oluna bilməsi- Valyutanın konvertasiyası ölkənin ümumi iqtisadi vəziyyətindən aslıdır. İnflyasiya səviyyəsinində burda rolu böyükdür. Son illərdə ölkəmizdə (2020-ci ilə qədər) inflyasiya dərəcəsi sabit vəziyyətdə saxlanılmışdır. Bu və iqtisadi sabitliyin qənaətbəxş səviyyədə saxlanılması ölkəmizin valyutasının konvertasiyasında hər hansı problemin yaranmasının qarşısını almışdır. Ölkəmizə yatırımlar edən xarici investorlar konvertasiyada problemi ilə üzləşmirlər. Bu da öz növbəsində investisiya mühitinə öz müsbət təsirini göstərir. Bu faktor üzrə qiymətləndirməni 2.5 bal olaraq dəyərləndirirəm.

9. Bürokratik əngəllər- Ölkəmizdə bu əngəllərin daha intensiv olduğu vaxtlar Pandemiya dövründə yaşanmışdır. Belə ki, bu dövrdə karantin rejiminin mövcud olması bir sıra sahələrə öz mənfi təsirin göstərmişdir. Bunlardan ən əsası da investisiya mühiti olmuşdur. Həm ölkəmizdə ki, həm də xarici sahibkarların tətbiq edilən bir sıra məhdudiyyətlərə görə ölkəmizdəki hər hansı bir sahəyə investisiya yatırmaları mümkün hal kimi görsənmirdi. Buna səbəb kimi, bu dövrdə insanların gəlirlərinin əl-əxsus alıcılıq qabiliyyətlərinin aşağı olmasını, açılan obyektlərin karantinin yaratdığı məhdudiyyətlərə görə tez-tez qapanmasını və obyektlərin

normal iş fəaliyyətinin mövcud olmamasını nümunə göstərmək mümkündür. Obyektlərin uzun müddət iş fəaliyyəti ilə məşğul ola bilməməsi iqtisadi mühitin problemli olması fikrini yaradırdı. Həmçinin, bayaq qeyd etdiyimiz kimi, orta əmək haqqı səviyyəsi də aşağı olduğu üçün obyektlər işləsə belə satış fəaliyyətlərində ciddi problemlərlə üzləşəcəkdilər. Ölkəmiz bütün bu problemlərə həll çarəsi kimi bir sıra dəstək proqramları irəli sürmüşdür. Buna vergilərin azaldılmasını, nəticədə sahibkarların vəziyyətinin yaxşılaşdırılmasını, birdəfəlik sosial yardımların göstərilməsini, istehlakçılara dəstək məqsədli olan ƏDV geri al layihəsinin irəli sürülməsini və s. yardımları və dəstək paketlərini misal göstərə bilərik.

Ölkəmizin investisiya mühitinin inkişaf etdirilməsi üçün ilk növbədə özəlləşdirilmələrin sayını artırmaq lazımdır. Zənnimcə, ölkəmizdəki bürokratik əngəllərdən biri də bu sayıla bilər. Özəlləşdirilmə nə qədər geniş sahə və sektorları əhatə edərsə, ölkəmizə bir o qədər xarici sahibkar cəlb edə bilərik.

Fikrimcə, ölkəmizdə əngəldən çox, xarici investorların cəlb edilməsi üçün bir sıra tədbirlər görülüb və görülməkdə davam etdirilir. Qarabağ iqtisadi zonasında bir sıra yeni nəqliyyat infrastrukturunun yaradılması, Füzulidə olan aeroportun istifadəyə verilməsi, Şuşa şəhərində, o cümlədən regionun digər şəhər və rayonlarında bərpa işləri görülməsi, bu zonada investisiya mühitinin inkişafı və dirçəlməsi üçün atılan ən vacib addımlardan biri kimi hesab edilir. Bu faktor üzrə qiymətləndirməm 1.2 baldır.

10. İşgüzar müqavilələr əldə olunması və onların reallaşma imkanı - Azərbaycanda işgüzar və ya digər müqavilələrin tənzimlənməsi qaydaları, habelə tərəflərin öhdəlikləri, müqavilənin həyata keçirilməsi və s. qaydalar Mülki Məcəlləyə əsasən tənzimlənir. Bu cür müqavilələrin ölkəmizdə reallaşma səviyyəsi yüksək səviyyədədir və reallaşmasına təsir edəcək heç bir əngəl yoxdur. Ölkəmiz daxilində müqavilə azadlığı mövcuddur. Bu faktor üzrə dəyərləndirməm 1.5 baldır.

11. Xidmətlərin keyfiyyəti və işgüzar tərəfdaşların etibarlılığı- Xidmətlərin keyfiyyəti bir sıra sektorlar üzrə ölçülə bilən bir dəyərdir. Ölkəmizdə xidmətlərin keyfiyyəti nisbi qənaətbəxşdir. Bu faktor üzrə qiymətlədirmənin 0.5 bal olduğunu düşünürəm.

12. Yerli menecmentin keyfiyyəti- Korporativ idarəetmə standartları ölkəmizdə tam formalaşmayıb bu baxımdan yerli menecmentin keyfiyyətini yüksək hesab etmək olmaz. Bu faktorun çəkisini 2 bal ilə qiymətləndirirəm.

13. Nəqliyyat şəbəkəsi- Qarabağ zonasında nəqliyyat şəbəkəsi üzrə bir çox layihələr həyata keçirilib və keçirilməyə davam edəcəkdir. Bu layihələrdən biri də Horadiz və Ağbənd rayonlarını birləşdirən dəmir yolu layihəsidir ki, 2021-ci il fevralın 14-ü tarixində bu layihənin təməli qoyulmuşdur. Bu məqamda bunu qeyd etmək olar ki, Horadiz-Ağbənd dəmir yolu layihəsi Naxçıvan dəhlizinin mühüm hissəsini təşkil edir. 10 noyabr 2020-ci ildə zəfər sonrası imzalanan bəyannaməyə görə Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanla Naxçıvan arasında olan blokada aradan qaldırılır və Naxçıvanla yenidən kommunikasiya xətləri bərpa edilir. Zəngəzur dəhlizinin yaradılması həm Ermənistan, həm Azərbaycan, həm də regionun digər dövlətləri üçün geniş imkanlar yaradacaq. Bu, Azərbaycanın mövqeyini mərkəzləşdirəcək və onun regionda geosiyasi əhəmiyyətini artıracaq, çünki bu dəhlizin yenidən açılması geostrateji əhəmiyyət kəsb edir. Bundan başqa, bayaqda qeyd etdiyimiz kimi, tarixi Zəngəzur torpaqlarından keçən bu marşrutla Naxçıvanla Azərbaycan arasında birbaşa əlaqə yaranacaq. Hansı ki, 1990-cı illərdə başlayan Qarabağ müharibəsindən sonra Naxçıvanla Zəngəzur arasında avtomobil yolu kəsilib və bu rayon Azərbaycandan təcrid olunmuşdu. Bundan başqa Füzuli və Şuşa arasında çəkilən avtomobil yolundan da danışa bilərik. Bu yol başqa adı ilə Zəfər yolu kimi də adlandırılır. Bu yolun təməli 2020-ci ilin noyabrının 16-da qoyulmuşdur və uzunluğu təxminən 101.5 km təşkil edir (https://president.az/az/articles/view/46989/print, 2021). Bu qeyd edilənlərlə yanaşı, tikilən tunelləri də qeyd etmək yerinə düşərdi. Belə ki, Kəlbəcər yolu üzərində Murovdağ tuneli, Laçın-Kəlbəcər tuneli, Zəngilan ərazisində tikiləcək tuneli nümunə göstərə bilərik. Qeyd edək ki, Murovdağ tuneli 11600 metrlə Azərbaycan ərazisində ən böyük tuneldir (http://www.aayda.gov.az/az/news/3247, 2021). Ölkəmizin bu qısa zaman ərzində azad edilən torpaqlarda nəqliyyat şəbəkəsini yenidən inşa etməsi Qarabağın investisiya mühitinə də öz müsbət təsirini göstərəcək. Bu faktorun çəkisini 2 bal olaraq dəyərləndirirəm.

Yerli bazarlarda qısamüddətli kredit əldə etmək imkanı- Kredit təşkilatlarının 2020-ci ildə qısa-müddətli dövrdə milli valyutada kredit qoyuluşları 1754,2 mln. manat idisə, 2021-ci ildə isə bu göstərici 2246 mln. manata qədər qalxmışdır. 2020-ci il üzrə kredit qoyuluşlarının bəzi sahələr üzrə paylanmasını diaqram 4-də görə bilərik. Göstəricilər milyon manat üzərindən hesablanmışdır (https://www.cbar.az/page-42/monetary-indicators#page-2, 2022 ).

**Diaqram 4: 2020-ci il sahələr üzrə kredit qoyuluşu**




**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi Bankı (https://www.cbar.az/page-42/monetary-indicators#page-2, 2022)

Diaqramdan göründüyü kimi kredit qoyuluşu daha çox ticarət və xidmət sektorunu əhatə etmişdir. Daha az kredit qoyuluşu isə büdcə təşkilatları və dövlət fondlarının payına düşüb. Ölkəmizdə qısa-müddətli kredit imkanları zəifdir. KOB-un sahibkarlara güzəştli kreditlər verməsinə baxmayaraq, bu yetərli olmur. Nisbi faiz dərəcəsi yuxarı olduğuna görə güzəştlər edilsə belə bu miqdar kifayət etmir. Bu səbəbdən, bu faktor üzrə qiymətləndirməm 1.8 bal olacaqdır.

15. Uzunmüddətli kredit əldə etmək fürsəti- Kredit təşkilatlarının 2020-ci ildə uzun-müddətli dövrdə milli valyutada kredit qoyuluşları 8449,8 mln. manat idisə, 2021-ci ildə isə bu göstərici 10450.5 mln. manata qədər qalxmışdır. Uzunmüddətli kreditlər üçündə eyni sözlər keçərlidir, faiz dərəcəsi yuxarı olduğu üçün uzunmüddətli kredit imkanları zəifdir. Bu faktor üzrə qiymətləndirməm 2 baldır.

## 2.2. Mikro, kiçik və orta sahibkarlar arasında ixracyönümlü istehsal sahələrinin yaradılması imkanlarının qiymətləndirilməsi

2020-ci ilin payızı Azərbaycan üçün mühüm və tarixi hadisə ilə yadda qaldı. Belə ki, də ölkə hərbi yolla öz ərazi bütövlüyünü erməni işğalından xilas edə bildi. Bu münaqişə Azərbaycan müstəqillik əldə etdikdən bir qədər sonra başlamış və 2020-ci ilin sentyabr ayına qədər davam etmişdir. Azərbaycanın işğal olunmuş əraziləri azad olunandan sonra indi həll edilməli olan başlıca vəzifə həmin ərazilərin bərpası və məcburi köçkünlərin öz evlərinə qaytarılmasıdır. Bu ərazilərdə məcburi köçkünlərin geri qaytarılması üçün müvafiq mühit, o cümlədən sabit və rahat şərait yaradılmalıdır. Azad edilmiş ərazilərin iqtisadi tərkib hissəsi həyati əhəmiyyətli rol oynayacaqdır. Bu məqsədlə indi tamamilə Azərbaycanın suveren nəzarətində olan torpaqların iqtisadi potensialına yenidən baxılması vacibdir.

**Cədvəl 3: Qarabağın inkişaf etdirilməsi üçün yeddi rayon üzrə sənaye, tikinti, ticarət və digər xidmət sahələri üzrə yerli aktiv bölmələrinə aiddir**

| Rayon | 1990 | 1991 | 1992 | 1993 | 1994 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| 1 Füzuli | 85,672 | 91,221 | 101,067 | 106,957 | 10,8912 | 115,830 | 134,250 |
| 2 Cəbrayıl | 88,252 | 95,353 | 106,678 | 114,972 | 119,575 | 126,903 | 143,312 |
| 3 Lacın | 60,413 | 61,354 | 67,978 | 75,896 | 75,250 | 77,895 | 89,130 |
| 4 Zəngəzur | 86,942 | 93,475 | 103,381 | 115,445 | 106,791 | 106,702 | 106,376 |
| 5 Agdam | 97,847 | 107,135 | 128,466 | 132,424 | 130,651 | 137,504 | 145,958 |
| 6 Kəlbəcər | 316,202 | 332,955 | 360,041 | 363,867 | 363,664 | 381,903 | 430,202 |
| 7 Şuşa | 65,974 | 70,785 | 82,111 | 89,206 | 91,0376 | 97,805 | 117,094 |

**Mənbə:** https://smb.gov.az/storage/KOB%C4%B0A%20%C4%B0CMAL%202020.pdf, 2020

Özəl sektor bu sahələrdə mühüm rol oynamalıdır. 30 ildən artıqdır ki, silahlı münaqişələr yaşayan Qarabağ bölgəsində fiziki infrastruktur çox bərbad vəziyyətdədir. Yenidənqurma səyləri buna görə də müharibə zamanı zədələnmiş və ya dağılmış şəhər mərkəzlərində yollar, körpülər, telefon xətləri, dəmir yolu xətləri, enerji təchizatı, elektrik xətləri, su və kanalizasiya sistemləri kimi mühüm infrastrukturu bərpa etməlidir.

Cədvəl 3-də uyğun olaraq, paytaxt və qonşu əraziləri əhatə edən altı nömrəli bölgə olan Kəlbəcər üçün digər ərazilərlə müqayisədə daha yüksək inkişaf səviyyəsinin olduğunu müşahidə edirik. Bu, çox güman ki, həm yeni şirkətlər üçün imkanlar, həm də idarəetmədə böyük təcrübəyə malik ixtisaslı, təlim keçmiş kadrlar, müxtəlif resurslara, infrastruktura, mütəxəssislərə və akademiklərlə əlaqələrə daha yaxşı çıxış imkanı təklif edən daha cəlbedici biznes mühiti səbəbindən baş verə bilər.

**Cədvəl 4: İnfrastuktur potensialı**

| Kateqoriya Kapital | Mövcud ehtiyatın məhv edilməsi | Yeni investisiyalara təsir göstərir |
|---|---|---|
| Məhsuldar kapital, bitki torpaqları minalanmış, zavod avadanlıqları və binalar | torpaq minalanmış, zavod avadanlıqları məhv edilmişdir | Şəxsi məhsuldar investisiyaların azalması |
| İqtisadi infrastruktur | nəqliyyat və rabitə sistemi enerji mənbələri sıradan çıxır | İnfrastruktur üçün dövlət xərclərinin azalması |
| Sosial infrastruktur | məktəblərə, xəstəxanalara, poliklinikalara ziyan dəyib | |
| İnsan kapitalı | ölüm, bacarıqların miqrasiyası, pisləşən qidalanma və işçi qüvvəsinin pis sağlamlığı | Xüsusilə səhiyyə və təhsildə dövlət xidmətlərinin azalması |
| Təşkilatın kapitalı | Dövlət qurumları, banklar, elm və texnologiya məhv edilir | Formal sektorda heç bir resurs QHT kimi yeni qeyri-rəsmi təşkilatlar inkişaf etmir |
| Sosial kapital | Etibarın, iş etikasının, mülkiyyət hüquqlarına hörmətin məhv edilməsi | Müharibədə əlaqələri inkişaf etdirən sosial kapitalın yeni formaları |

**Mənbə:** https://smb.gov.az/storage/KOB%C4%B0A%20%C4%B0CMAL%202020.pdf, 2020

Milli səviyyədə böyük, fəal şirkətlər və KOS-lar tərəfindən həyata keçirilən illik dövriyyə Cədvəl 5-də təqdim olunur.

Əksər hallarda söhbət bu xidmətlər əvvəllər mövcud olduğu üçün yeni bir şeyin qurulmasından gedir.

Qarabağ müəssisələrinin ümumi dövriyyəsi ilə bağlı məlumatlar daha sonra təhlil edilir.

**Cədvəl 5: Fəal şirkətlərin, kiçik və orta müəssisələrin (KOB) və iri müəssisələrin dövriyyəsi**

| illik/No. Işci güvvəsi | 0–9 | 10–49 | 50–249 | >250 |
|---|---|---|---|---|
| 1990 | 172,783 | 209,784 | 226,239 | 242,028 |
| 1991 | 178,450 | 221,111 | 236,806 | 266,871 |
| 1992 | 193,513 | 241,214 | 264,461 | 307,963 |
| 1993 | 212,861 | 264,998 | 267,928 | 314,721 |
| 1994 | 200,138 | 258,106 | 182,285 | 224,469 |
| 2020 | 212,025 | 176,365 | 287,391 | 129,936 |
| 2021 | 220,570 | 303,257 | 337,667 | 370,994 |

**Mənbə:** 1990-1994, 2020, 2021-ci illər Azərbaycan illik Statistik hesabatlar əsasında müəllif tərəfindən tərtib olunub.

**Diaqram 5: Yeddi inkişaf etmiş regionun ilk şirkətlərinin ümumi dövriyyəsi**




**Mənbə:** 1990-1994, 2020, 2021-ci illər Azərbaycan illik Statistik hesabatlar əsasında müəllif tərətindən tərtib olunub.

**Diaqram 6: KOS (0-249 işçi) və iri müəssisələrin dövriyyəsi**




**Mənbə:** 1990-1994, 2020, 2021-ci illər Azərbaycan illik Statistik hesabatlar əsasında müəllif tərəfindən tərtib olunub.

Beləliklə, yerli və mərkəzi inzibati siyasətçilərə aid olan hökumət, Asiya və ya regional siyasətlər vasitəsilə ərazi inkişafının sütunu kimi KOS-ların dəstəklənməsinə və inkişafına daha böyük əhəmiyyət verilməli olduğu sübut edilmişdir.

Cədvəl 6-da göstərildiyi kimi müxtəlif ölçülü müəssisələrin dövriyyəsini təhlil edərək, hətta onların hamısı eyni yüksəliş trayektoriyasını yaşasalar belə, müəssisələrin bu göstərici üçün daha böyük dəyərə malik olduğunu göstərir. Buna baxmayaraq, bütün bu yığılmış məlumatlar göstərir ki, KOS-lar bu dəyəri xeyli keçə bilər.

**Cədvəl 6: Fəal şirkətlərin dövriyyəsi və ölçü kateqoriyaları**

| Illər | KOB (0–249) | İri şirkətlər (>250) |
|---|---|---|
| 1990 | 608,806 | 242,028 |
| 1991 | 636,367 | 266,871 |
| 1992 | 699,188 | 307,963 |
| 1993 | 745,787 | 314,721 |
| 1994 | 740,529 | 314,464 |
| 2020 | 775,781 | 329,936 |
| 2021 | 861,494 | 370,994 |

**Mənbə:** 1990-1994, 2020, 2021-ci illər Azərbaycan illik Statistik hesabatlar əsasında müəllif tərətindən tərtib olunub.

Cənab İlham Əliyevin dediyi kimi, Qarabağ yenidənqurma səylərində 30 il əvvəl mövcud olan infrastrukturu bərpa etmək, lakin ən son kommunikasiya texnologiyaları ilə XXI əsrə sıçrayış etmək niyyətindədir.Özəl sektor infrastrukturun yenidən qurulmasında əsas rol oynaya bilər. İxtisaslaşmış xarici firmalar adətən Avropa Yenidənqurma və İnkişaf Bankı, Dünya Bankı və ya Asiya İnkişaf Bankı, Regional İnkişaf Bankları kimi çoxtərəfli qurumlar tərəfindən maliyyələşdirilən böyük infrastrukturun bərpası müqavilələrini təmin edə bilərlər.

**Diaqram 7: Ölçü kateqoriyası üzrə müəssisələrin dövriyyəsi**




**Mənbə:** 1990-1994, 2020, 2021-ci illər Azərbaycan illik Statistik hesabatlar əsasında müəllif tərətindən tərtib olunub.

Yerli özəl firmalar bu səylərdə iştirak edə bilsələr də, tələb olunan keyfiyyət standartlarına cavab vermək üçün lazımi avadanlıq və texniki heyətə malik olmaya bilərlər. Onlar yenidənqurma işlərini xammalla təmin edə bilirlər. Proqramların bəziləri əmək tutumlu texnika ilə həyata keçirilərsə, ölkələrin gənclərini, tərxis olunmuş əsgərləri, geri qayıdan qaçqınları və məcburi köçkünləri işlə təmin edə bilər və beləliklə, reinteqrasiya səylərinə kömək edə bilər. Bundan əlavə, yenidənqurma proqramının tam şəkildə həyata keçirilməsi mal və xidmətlərə tələbat yarada bilər, beləliklə, iqtisadiyyatın işə salınmasına kömək edəcəkdir.

30 ilə yaxındır ki, Azərbaycanın cənub-qərb bölgəsindəki torpaqlar Ermənistan tərəfindən işğal olunub. Bu səbəbdən bu torpaqların azad edilməsi AR-ın həm daxili, həm də xarici siyasətinin əsas prioriteti idi. Azərbaycan uzun illər ATƏT-in Minsk qrupunun həmsədr ölkələri (Fransa, Rusiya Federasiyası və ABŞ) vasitəsilə danışıqlar apararaq problemi sülh yolu ilə həll etməyə çalışıb, lakin Ermənistan-Azərbaycan münaqişəsinin həllini bilərəkdən ləngitməklə, Ermənistan 1994-cü il atəşkəs sazişindən sonra yaradılmış status-kvonu qoruyub saxlamağa çalışıb (https://www.bbc.com/azeri/azerbaijan-57859747, 2021). Həmin vaxt Ermənistan təkcə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) ərazisini deyil, həm də ona bitişik yeddi rayonu işğal etmiş, bununla da bütün yerli əhalini öz ev-eşiyini tərk edərək öz ölkəsinə köçürməyə məcbur etmişdi. Ermənistan ordusu tarix ərzində Azərbaycan xalqının mədəni sərvətlərinə də ziyan vurduğu halda, ümumilikdə 950 kitabxana, 44 məbəd və 9 məscid dağıdılmışdır. Beynəlxalq hüquqa məhəl

qoymayaraq işğalını davam etdirən Ermənistanın regionda vurduğu maliyyə itkisinin ümumilikdə 320 milyard dolları ötdüyü təxmin olunur (https://www.aa.com.tr/tr/azerbaycan-cephe-hatti/azerbaycanin-isgal-altindaki-topraklari-karabag/1989594, 2020).

Qısa müddət ərzində iqtisadiyyatın və ixracın şaxələndirilməsi hesabına neft-qaz gəlirlərindən asılılığını azaltmaq məqsədində olan ölkəmiz, qeyri-neft sektorunun kapital cəlbində əsas payı alması üçün də bir sıra tədbirlər görərək bu sektora kapital cəlbinə nail olmuşdur. Bu istiqamətdə ölkəmiz qeyri-neft sektoruna yönləndirilən ÜDM payının artırılmasını da prioritet məqsəd kimi qarşısına qoymuşdur.

Qarabağın yeni işğaldan qurtarılmış ərazilərinə daxil olan, lakin Qarabağ iqtisadi rayonunun yox, Şərqi Zəngəzurun daxilində olan Zəngilan şəhərində ağıllı evlərin salınması, İsrail ilə ağıllı ferma layihəsinin başladılması kapital cəlb edilməsi nəticələri kimi hesab edilə bilər. Regiona bir sıra dövlətlərin maraq göstərməsi, kapital cəlbinə də öz müsbət təsirini göstərir. Qeyd etmək lazımdır ki, Qarabağ regionunda bir sıra tikinti işlərini Türkiyə şirkətləri öz üzərinə götürüb. Həmçinin, Türkiyə şirkətləri bu regionda qısa müddətdə tikilən Füzuli hava limanının tikintisində də, bilavasitə rol oynamışdır. Bundan əlavə bu şirkətlər heyvandarlığın inkişafına da öz töhfələrini veriblər və verməyə də davam etməkdədirlər. Ümumilikdə, Türkiyə şirkətləri bölgədə heyvandarlıqdan tutmuş,faydalı qazıntıların istismarına qədər bir çox sahədə böyük rol oynamaqdadırlar. Türkiyə şirkətlərinin aqro sahəyə də etdiyi investisiyaları vurğulamaq lazımdır, bu investisiyalar həm Qarabağ zonası, həm də öz növbəsində Azərbaycan iqtisadiyyatı üçün kifayət qədər vacib investisiyalardır. Türkiyə ilə yanaşı digər dövlətlər də, həmçinin qonşu dövlətlər də bu quruculuq işlərində iştirak üçün ölkə rəhbərliyimizə öz təklif və istəklərini bildiriblər. Qarabağ regionunda tikinti işlərinə böyük tələbatın olması, bu sektoru regionun kapital cəlbi səviyyəsində ön plana çıxarıb. Regionda bir sıra kənd və qəsəbələrin salınması, investorların bu ərazilərə öz layihə və yatırımlarını cəlb etmək üçün əlverişli mühit yaratmışdır. Qarabağ zonasında mövcud olan iqtisadi ehtiyatlarda investor cəlbində xüsusi rol oynayır. Diaqram 8 üzərində Qarabağda

mövcud olan iqtisadi ehtiyatların, Azərbaycanda mövcud olan iqtisadi ehtiyatların neçə faizini təşkil etdiyinin vizual təsvirini görə bilərik. Bunu da qeyd edək ki, Diaqramda qeyd edilən ehtiyatlar kənd təsərrüfatına aid ehtiyatlardır.

**Diaqram 8: Qarabağda kənd təsərrüfatı ehtiyatları**




**Mənbə:** https://smb.gov.az/storage/KOB%C4%B0A%20%C4%B0CMAL%202020.pdf,2020

Diaqramdakı istehsal faizləri Qarabağ regionunun Azərbaycanda mövcud olan istehsalın neçə faizini təşkil etdiyinin göstəriciləridir. Qarabağ zonası kənd təsərrüfatı ehtiyatlarından savayı qızıl, molibden, mis, gümüş kimi faydalı qazıntılarla da zəngindir. Qarabağ zonasında mövcud olan resurs potensialı bu regionun gələcəkdə Azərbaycan iqtisadiyyatında mühüm rol oynayacağının göstəricisidir.

Nəqliyyat şəbəkəsinin sürətlə bərpası regionun ixrac potensialının irimiqyaslı bazarlara daşınmasında bilavasitə rol oynayır. Bu ixracda öz növbəsində bölgədəki tədiyə balansına öz müsbət təsirini göstərərək, investorların bölgəyə cəlbində əvəzsiz rol oynayır. Bununla yanaşı “Zəngəzur koridoru” layihəsi bölgənin tranzit imkanları istiqamətində ölkə rəhbərliyimizin atdığı ən uğurlu addımlardan biridir. Bu barədə Prezidentimiz cənab İlham Əliyevin səsləndirdiyi bir ifadə vardır: “Biz siyasi leksikona “Zəngəzur dəhlizi” sözünü daxil etmişik.” Bəli, bu artıq reallıqdır ki, ölkəmiz Qarabağda qazandığı zəfərin bərabərində bir sıra uğurlara imza atmış, sözü gedən layihənin beynəlxalq arenada tanınmasına vəsilə olmuşdur. Bu layihə

reallaşdığı zaman ölkəmiz tranzit imkanları cəhətdən xeyli inkişaf edəcək və bu da öz növbəsində, Qarabağın investisiya mühitinə öz müsbət təsirlərini göstərəcəkdir.

2020-ci il Qarabağın müstəqilliyini elan etdikdən sonra bəzi xarici sərmayədarların marağına səbəb olub. Azərbaycanın böyük karbohidrogen ehtiyatlarına malik olan neft-qaz sektoru həmişə xarici investisiyalar üçün cəlbedici olmuşdur: 2000-ci ildən 2017-ci ilədək olan dövrdə ölkə iqtisadiyyatına 77,8 milyard ABŞ dolları yönəldilmişdir (https://bakuresearchinstitute.org/az/foreign-direct-investment-in-azerbaijans-economy-current-status-development-trends-and-challenges, /, 2018).

Ölkəmizə cəlb edilən BXİ-nin 90 faizə yaxını neft-qaz sektoruna məxsusdur. Ölkəmizin qeyri-neft sektoru, başda emal sənayesi olmaqla 2000-2017-ci illər arasında investorlar tərəfindən maraqla qarşılanmırdı,bu səbəbdən də bu sahəyə yatırımlar az edilirdi. Ölkəmizin neft-sektoruna bu qədər investisiya edilməsinə baxmayaraq, qeyri-neft sektorunda da bu aktivliyin müşahidə olunmaması təəccüb doğuran hadisələrdən biri kimi hesab edilir. BXİ-nin bu sektorlara cəlb olunmasının artırılmasına nail olmaq üçün xarici investorların qarşısını alan amilləri müəyyənləşdirmək və onları aradan qaldırmaq üçün tədbirlər görmək vacibdir.

Qeyri-neft sektoru nöqteyi-nəzərindən hələ ki, Qarabağ iqtisadiyyatında kapital cəlb edilməsi baxımından ən aktiv sektor tikinti sektorudur.

Ölkəmizin Şuşa şəhərində keçirdiyi Beynəlxalq tədbirlər, ölkəmizə yeni investisiya dalğasının gəlməsi üçün atılan ən vacib addımlardan biridir. Belə ki, bu tədbirlərə nümunə kimi yaxın zamanlarda (5 may) başlayan Beynəlxalq Kulinariya Festivalını misal göstərə bilərik.Bu beynəlxalq miqyasda bir tədbirdir və bu tədbirdə Avropadan, Asiyadan bir çox ölkələr iştirak edib. Həmçinin, öz ölkəmizin də iqtisadi rayonları bu tədbirdə iştirak edib. Tədbirdə müxtəlif ölkələr öz mətbəxlərin nümayiş etdiriblər. Tədbirin məqsədi Şuşa şəhərini beynəlxalq arenada tanıtmaq, ölkəmizin mədəniyyətini, mətbəxini gələn qonaqlara göstərməkdən ibarətdir. Öz növbəsində bütün bu tədbirlər investisiya cəlb ediciliyinə müsbət təsir göstərir (https://azertag.az/xeber/Susa_Birinci_Beynelxalq_Kulinariya_Festivali_basa_chatib-2126186, 2022)

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin sektoral inkişaf istiqamətində inkişaf etdirilməsi müxtəlif sektorları əhatə edəcəkdir. Bunların siyahısı geniş olduğu üçün bir sıra qrup ardıcıl olaraq sektorlar üzrə ayırd edilməlidir. İlk əvvəl idarəetmə və təhlükəsizlik məsələləri istiqamətində məsələlər durur. Söhbət işğaldan azad edilmiş ərazilərinin minalardan və digər bir çox hərbi resurslardan təmizlənməsindən, bundan başqa həyata birbaşa təhlükə yaradacaq ekoloji və bioloji pozuntularının hər birinin aradan qaldırılmasından gedir. Bundan başqa, sərhəd xidməti, polis nəzarəti və dövlət orqanlarının fəaliyyəti üzrə məsələlərin hər biri diqqətə alınmalıdır.

İşğal altında olan bu torpaqlar ümumi 6 şəhər, 7 rayon mərkəzi, 12 qəsəbə, təxminən 830 kənddən ibarətdir ki, bu ərazilərdə yerləşən 700 tibb müəssisəsi və xəstəxana, 6 dövlət teatrı, 85 musiqi məktəbi, təxminən 600 sənaye, kənd təsərrüfatı və digər müəssisələr dağıdılmışdır (https://bizim.media/az/iqtisadiyyat/2963/, 2020). Ümumi 1 mln. hektardan çox olan kənd təsərrüfatı sahəsi, ümumi 128 min suvarılan torpaq, o cümlədən 35 min hektara yaxın meyvə və üzüm bağları məhv olunaraq dövriyyədən çıxarılmışdır (https://bizim.media/az/iqtisadiyyat/2963/, 2020).

İşğala qədər ÜDM istehsalına baxdıqda ölkə üzrə ümumi 24%-i, üzüm istehsalında 41%, kartof istehsalında 46%, ət istehsalında 18%, süd istehsalında 34% həmin bu rayonların payına düşmüşdür. Bu statistik məlumatlara əsasən görüləcək işlərin miqyasını təsəvvür etmək mümkündür.

Qarabağ ərazisində 4 giqavat günəş enerjisi, 0,5 giqavat külək və 0,7 giqavat su potensialı bölgənin yaşıl enerji zonasına çevrilməsində böyük potensiala sahibdir. Suqovuşan", "Xudafərin", "Qız Qalası" stansiyaları, o cümlədən Laçın və Kəlbəcərdəki kiçik su elektrik stansiyaları azad edilən bölgələrin ilkin enerji tələbatını ödəyə biləcək gücündədir. Qarabağda BP-nin "yaşıl enerji" üzrə sərmayə yatırarsa nəinki alternativ enerji sahələri üzrə, bütövlükdə Qarabağ ərazisində sərmayə cəlbinə səbəb olacaq (https://xalqqazeti.com/az/news/82383, 2021).

Azərbaycanın işğaldan azad edilmiş bölgələrində iqtisadi artıma dəstək olan sahələri diqqətli seçməliyik. Nümunə olaraq, Azərbaycanda tikinti sektorunda məhsulundan ümumi 84 sahə (downstream) faydalanmaqdadır, tikinti özü isə cəmi

sahənin (upstream) xidmətindən və məhsulundan yararlanır. Beləliklə də, tikinti sektoru elə bir həlqəyə çevrilmişdir ki, onun vasitəsilə bu ərazidə bütün zənciri tərpətmək, bundan başqa, tələb-təklif yaratmaq mümkündür. Azərbaycanın Qarabağ ərazisində tikinti bumu bütün iqtisadiyyatımızı canlandıra bilər. Belə ki, tikinti sektorunda istifadə edilən məhsullar və xidmətləri mümkün qədər hər birinin yerli istehsalının təmin olunması ilə əlavə dəyər yaradıla bilər. Tikinti sektoru qədər emal sənayesindəki "upstream" və "downstream" istiqamətləri üzrə təsir imkanlarına sahibdir. Çünki istər dağ-mədən, istərsə də kənd təsərrüfatı sektoru üzrə məhsul olsun, emal sənayesi üzrə xammal resursuna dəyər əlavə olunmaqla, emal dərinliyini daha da artırmaqla iqtisadiyyatı canlandıracaq, iş yeri və əlavə dəyər yaradılacaqdır.

Azərbaycan ərazisinin 2030-cu il hədəflərinə baxdıqda əhali artımı da nəzərə alınmalıdır. Belə ki, 2030-cu ilə qədər əhali sayında BMT-nin proqnozlarına əsasən ümumi 600 min nəfər artacaqdır. Bir tərəfdən də Qarabağda olan 167 faydalı təbii resurslar, su, meşə və torpaq fondu, tarixi və mədəni abidələr, digər tərəfdən də 600 min insan yaxın əhali perspektivdə iqtisadiyyatımıza daha da əlavə güc qatacaqdır. Bu müddət ərzində də istər insan kapitalını, istərsə də təbii ehtiyatlar daha da səmərəli formada istifadə edilməsi üçün şərait yaradılmaqdadır

Qarabağ bölgəsində təhlükəsizliyin təmin edilməsində, o cümlədən burada minalardan təmizlənmə və ərazidə infrastrukturun yaradılması istiqamətlərində vacib yük dövlət büdcəsi üzərinə düşməkdədir, beynəlxalq inkişaf partnyorları, habelə özəl sektorlar və diaspora sərmayələrinin hər biri iqtisadiyyatın canlandırılmasında mühüm rola sahib ola bilər. Bundan başqa, 2030-cu ilə dək Qarabağ ölkəmizin qeyri-neft sektoru üzrə 5-10 %-i həddində iqtisadiyyata sahib ola bilər(https://azertag.az/xeber/Vusal_Qasimli_Qarabagda_iqtisadiyyatin_6_esas_istiqameti_ve_4_agirliq_merkezi_var-1803091, 2021).

Hazırki iqtisadi vəziyyətin təhlili onu göstərir ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə quruculuq zamanı bir çox maliyyə mənbələrindən, dövlət büdcəsindən, SOFAZ-dan, xarici kredit təşkilatlarının ayırdığı maliyyələşmələrdən, qrantlardan, ianələrdən, özəl sərmayələrdən, qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən istifadə oluna bilər. İndidən hər kəs tərəfdən hiss olunur ki,

burada beynəlxalq təşkilatların, xarici dövlətlərin, iri və orta bizneslərin nümayəndələri post-konflikt quruculuğu üzrə iştiraka maraq göstərirlər. Bir çox beynəlxalq təşkilatlar öz mandatına, o cümlədən, hər bir biznes öz profili üzrə azad olunmuş bölgələrdə sərmayə yatırmağa hazırdı. Böyük həcmdə sərmayə qoyuluşu ilkin səviyyədə çətin olduğuna görə, kiçik və orta biznes səviyyəsindən baxdıqda sərmayələrin cəlb olunması sonrakı dövrlərdə böyük investisiyaların qoyuluşlarına dəstək olacaqdır. Bunun nəticəsində də, Yaponiya və Tayvan texnologiya sahəsi üzrə vençur kapital qoyuluşları özlərini doğrultmuşdurlar. Dövlət-özəl tərəfdaşlığı ilə bir neçə sahələrə sərmayə cəlb oluna bilər. Burada infrastruktur layihələrin bir çoxunun dövlət-özəl tərəfdaşlığı ilə reallaşdırılması səmərəliliyin artmasına, dövlət büdcəsinə düşən yükün azalmasına və özəl sektorun canlanmasına gətirib çıxaracaqdır.

Azərbaycan iqtisadiyyatı dünya iqtisadi sisteminin ayrılmaz hissəsidir. Dünyada gedən iqtisadi proseslərdən kənarda qalmaq mümkün deyil və dünyada yaradılan qabaqcıl texnologiyalardan və istehsal təcrübəsindən istifadə etmədən milli iqtisadiyyatı inkişaf etdirmək mümkün deyildir. İqtisadi müstəqilliyin əsasını hər bir dövlətin, o cümlədən də Azərbaycanın sağlam milli iqtisadiyyatının formalaşması və inkişaf etdirilməsi təşkil edir. Dövlət siyasəti, diplomatiya, elm, təhsil, səhiyyə, mədəniyyət, incəsənət və tikintinin digər elementləri onun üzərində ucalır. Milli iqtisadiyyatın inkişafı olmadan dövlət səviyyəsində uğurlar əldə etmək mümkün deyildir. Bu həqiqətdir ki, üst quruluş bazaya münasibətdə passiv deyil, dövlətin düzgün istiqamətdə və milli maraqlar baxımından siyasəti bazanın inkişafını stimullaşdıran əsas amillərdən biridir.

Beləliklə, hər bir dövlətin, o cümlədən Azərbaycanın sağlam milli iqtisadiyyatı qarşılıqlı şərtləşmə, baza və dövlətin köməyi əsasında formalaşır, inkişaf edir və iqtisadi müstəqillik üçün şərait yaradılır. İqtisadi azadlıq o deməkdir ki;

1) insanlar tarix boyu yaratdıqları təbii sərvətlərin sahiblərinə çevrilirlər;

2) cəmiyyət özünü dəstəkləmək qabiliyyətinə malikdir və öz imkanlarına və tarixi reallıqlarına əsaslanaraq istehsalı milli mənafelər naminə təşkil etmək üçün ən yaxşı sosial formanı müəyyənləşdirir və formalaşdırır;

3) O, xarici iqtisadi münasibətlərin müstəqil şəkildə və tərəddüd etmədən milli maraqları naminə yaradılması keyfiyyətlərinə malikdir, xarici rəqabətə davamlıdır və iqtisadi təhlükədən qorunur. Hər bir iqtisadi cəhətdən müstəqil dövlət mübarizə aparmaq üçün maliyyə, pul-kredit, gömrük və qiymət siyasətinə malikdir.

Yuxarıda sadalanan şərtlər və amillər iqtisadi artımı təmin etmək üçün kifayət etmir, iqtisadi azadlığa nail olmaq üçün aşağıdakı şərtlər təmin olunmalıdır və onlar bazar iqtisadiyyatına keçərkən yaradılmalıdır;

1) Özünün yetkin milli bazarını və bu bazarın tələblərinə cavab verən struktur yaratmalıdır;

2) müstəqil inkişaf etmək və özünü yenidən yaratmaq imkanına malik olmalıdır;

3) müstəqil, güclü valyuta, maliyyə, kredit və bank sisteminə malik olmalıdır;

4) formalaşmış istehsal, bazar və sosial infrastrukturuna malik olmalıdır;

5) çevik iqtisadi mexanizm və dövlət idarəetmə ənənələri olmalıdır.

1991-1994-cü illər müstəqillik əldə etdikdən sonra bütün problemlərin yarandığı, ölkədə sosial və siyasi problemlərin böhrana çevrildiyi, müharibə getdiyi və azad bazar iqtisadiyyatına keçidin ciddi şəkildə pozulduğu bir dövr idi. İqtisadiyyatın inkişafının ən pis ssenarisi 1992-ci ildə olub. 1992-94-cü illərdə ÜDM iki dəfədən çox azalmış və 1991-ci ildəki ÜDM-in 48% - ni təşkil etmişdir. 1990-94-cü illərdə ÜDM hər il orta hesabla 13-20% aşağı düşürdü, 1994-cü ildə isə 1629,3 milyon dollar təşkil edirdi. 1990-cı illə müqayisədə 1994 - cü ildə ÜDM 53%, sənaye 62%, kənd təsərrüfatı 44%, istehlak 75%, vergi istehsalı isə 45% azalmışdı. Nəticədə əhalinin həyat səviyyəsi 3,6 dəfə, real orta əməkhaqqı isə 80% aşağı düşmüşdür (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2022). Həmin dövrdə həyata keçirilən düzgün olmayan iqtisadi siyasət bank və maliyyə sistemində və xarici ticarətdə ciddi problemlər yaratmışdır.

İnkişaf həmişə məqsəd və ya hədəf sistemini müəyyən edən bir istiqamətə malikdir. Əgər bu istiqamət müsbətdirsə, onda biz tərəqqidən danışa bilərik, əgər bu istiqamət mənfidirsə, onda biz tədricən və ya birbaşa tənəzzüldən danışa bilərik. Başqa sözlə, regionların regional inkişafının xarakteri həmişə müəyyən məqsəd və

